**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA ARIÇILIQ TƏSƏRRÜFATLARININ TƏŞKİLİ VƏ İQTİSADİ İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

İxtisas: **5312.01 - Sahə iqtisadiyyatı**

Elm sahəsi: **İqtisad elmləri**

İddiaçı: **Yusif Əbülfət oğlu Hümbətov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2022**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, professor
**Eldar Rza oğlu İbrahimov**

iqtisad elmləri doktoru, dosent
**Anar Fazil oğlu Abbasov**

iqtisad elmləri doktoru, professor
**Natiq Əli oğlu Cavadov**

iqtisad elmləri doktoru, professor
**Ramiz Kamil oğlu İsgəndərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d., professor

_______________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent

_______________ **Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: əməkdar kənd təsərrüfatı içşçisi
iqtisad elmləri doktoru, professor

_______________ **İslam Hacı oğlu İbrahimov**

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə ölkə iqtisadiyyatının qarşısında duran əsas vəzifə sahələr arasında tarazlığı təmin etmək, əhalinin ərzaqla təminini daim yaxşılaşdırmaq, sənaye sahələrinin kənd təsərrüfatı xammallarına olan tələbatının ödənilmə-sini və sahənin ixrac potensialının artırılmaqla yüksək səviyyədə inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaqdan ibarətdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyə gələrək, başladığı demokratik dövlət quruculuğu və iqtisadi inkişaf siyasəti hal - hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Ölkə Prezidentinin rəhbərliyi ilə qəbul edilən Strateji Yol Xəritələri, İqtisadi inkişaf Konsepsiyası, xeyli sayda dövlət proqramları və digər strateji xarakterli sənədlər, onların uğurla həyata keçirilməsi ölkəmizin hərtərəfli inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublıikası prezidenti İlham Əliyev 2015-ci il aprelin 10-da Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ərzaq təhlükəsizliyinin prioritet istiqamətlərdən olduğunu və ərzaq təhlükəsizliyinin təmin etməyən ölkələrin böyük problemlərlə üzləşəcəyini və odur ki, ölkəmizdə bu problemin həllinə nail olmaq üçün mütərəqqi dünya ölkələrin təcrübəsindən istifadə etməklə iqtisadi cəhətdən ən əlverişli yolun - innovativ metodlardan istifadə edilməsi olduğunu söyləmişdir.

Kənd təsərrüfatında aparılan islahatların davamı olaraq ölkəmizdə 2016-cı il 06 dekabr tarixli fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi" təsdiq edilib. Hazırlanmış bu Yol Xəritəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, ərzaq təhlükəsizliyi sahəsində koordinasiya, qiymətləndirilmənin aparılması proqramı, yeni layihələrin hazırlanması və həyata keçirilməsi, fövqaladə hallarda həyata keçiriləcək tədbirlərin müəyyən edilməsi və s. işlərin səmərəliliyinin təmin edilməsi məsələləri öz əksini tapmışdır.

Bu gün ölkəmizdə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində arıçılıq təsərrüfatlarının özünəməxsus rola malik olması, ölkəmizdə bu sahənin inkişafı üçün əlverişli torpaq-iqlim şə-

raitinin olmasına baxmayaraq, əhalinin əvəzsiz yeyinti məhsulu olan bala və digər arıçılıq məhsullarına olan tələbatını tam ödəyə bilməməsi, respublikamızda arıçılıq məhsullarının istehsalının təşkili və iqtisadi idarəetmə məsələlərinin təkmilləşdirilməsi aspektlərinin tədqiqi obyektiv zərurətə çevrilmişdir.

Beynəlxalq ekspertlərin müəyyən etdiyinə görə respublikamız hələlik öz əhalisinin arıçılıq məhsullarına olan təminatı üzrə zəif olan ölkələrdən sayılır. Lakin 2020-ci ilin statistik məlumatına əsasən artıq respublikamızda arıçılıq məhsullarının tibbi normaya uyğun adambaşına istehsalı təmin olunmuşdur. Lakin ixracat çox zəifdir, sahənin infrastrukturunun idarə olunması məsələləri axıra qədər həll edilməmişdir. Bu hallar heç də vahid bazar məzmunlu idarə olunma mexanizminə uyğunlaşdırılmamışdır.

Aqrar sahənin tərkib hissəsi olan arıçılıq təsərrüfatlarının iqtisadi idarəetmə mexanizminin elmi əsaslandırılmış yüksək, səmərəli üsulları, hələlik yaranmadığından, bu sahənin qarşısında duran strateji məqsədi də yerinə yetirilməmişdir. Bununla əlaqədar problemin tədqiqi, həyata keçirilən islahatlar nəticəsində arıçılıq təsərrüfatlarının idarə edilməsi, onun məzmun və mahiyyətinin öyrənilməsi problemləri sahəsində yeni metodoloji yanaşmanın aparılması qaçılmazdır.

Heç də təsadüfi deyildir ki, təşkil, idarəetmə, xüsusən də iqtisadi idarəetmə problemləri dünya iqtisadçıları və o cümlədən ölkəmizin iqtisadçı alimləri tərəfindən bütün dövrlərdə, tədqiqat obyekti olmuşdur. Respublikamızın iqtisadçı alimləri 1990-cı illərin əvvəllərindən başlayaraq bu məsələlərə aid çap etdirdikləri monoqrafiya və elmi əsərlərində Z.Ə.Səmədzadə, E.R.İbrahimov, İ.H.Alıyev, B.X.Ataşov, E.A.Quliyev, İ.H.İbrahimov, M.C.Hüseynov, N.Ə.Cavadov, A.B.Abbasov, A.F.Abbasov, İ.M.Abbasov, G.Ə.Əhmədov, Ə.X.Nuriyev problemin tədqiqinə xüsusi yer vermişlər.

Aqrar sahənin tərkib hissələrindən biri olan və bütün dünyada çox qədim və ənənəvi sahələrdən olan arıçılıq təsərrüfatlarının iqtisadi cəhətdən araşdırılması bu gün öz aktuallığı ilə nəzəri cəlb edir.

Arıçılıq sahəsi bir çox xarici ölkələrin iqtisadçı alimləri tərəfindən O.Dimitreviçin, O.Qrobovun, V.Savçenkonun, A.Şutkovun, E.Popovun, V.Ovçinnikovun, N.Kpivsovun və başqalarının elmi tədqiqat obyekti olmuşdur.

Respublikamızda arıçılıgın biologiyası, arı xəstəlikləri, damazlıq işinin təşkili sahəsində araşdırmalr aparılmış, aparılan elmi-tədqiqat işlərində müxtəlf məsələlərə toxunulsa da, bu sahənin iqtisadi idarə edilməsi, iqtisadi mexanizmləri araşdırılmamışdır. Bazar münasibətləri şəraitində hər bir sahənin iqtisadi problemlərinin həll etməsi zərurətindən dogan məsələlərin tədqiqatı, kənd təsərrüfatının aparıcı sahələrindən biri olan arıçılıq təsərrüfatlarında iqtisadi mexanizmlərin araşdırılmasını tələb edir. Bu baxımdan "Azərbaycanda arıçılıq təsərrüfatlarının təşkili və iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyası kompleks tədqiqat işi kimi yerinə yetirilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın aparılmasında məqsəd müasir şəraitdə Azərbaycanda arıçılıq təsərrüfatlarının təşkili və iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinin elmi cəhətdən əsaslandırılmasından ibarətdir.

Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:
- müasir dövrdə arıçılıq təsərrüfatlarının təşkili və iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinin nəzəri-metodoloji əsaslarının tədqiqi;
- arıçılıq təsərrüfatlarının formalaşması və inkişafı qanunauyğun-luqlarının əsaslandırılması;
- aqrar sahədə fəaliyyət göstərən arıçılıq təsərrüfatlarının inkişafının müasir vəziyyəti və ona təsir edən amillərin müəyyən edilməsi;
- arıçılıq təsərrüfatlarının təşkilinin bölgələrin təbii-iqlim şəraiti və bitki örtüyündən asılı olaraq yerləşdirilməsinin əsaslandırılması;
- arıçılıq üzrə sahibkarlığın təşkili və idarə edilməsi sahəsində islahatların arıçılıq təsərrüfatlarının inkişafına təsirinin elmi cəhətdən əsaslandırılması;
- arıçılıq məhsullarının marketinqinin təşkili və təkmilləşdirilməsi istiqamətlərinin tədqiqi;
- arıçılıq təsərrüfatlarının investisiya və maliyyə mexanizmlərinin təkmilləşdirilməsinin tədqiqi;
- arıçılıq məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında qiymət mexanizminin təkmilləşdirilməsinin elmi əsaslandırılması;

- aqrar sahənin idarə edilməsində maliyyə təminatının yaxşılaşdırılması istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti.** Respublikamızda fəaliyyət göstərən müxtəlif mülkiyyət formalı arıçılıq təsərrüfatlarıdır.

**Tədqiqatın metodları.** Problemin həlli nəzəri və iqtisadi təhlil metodlarının tətbiqi ilə həyata keçirilmişdir. Tədqiqat zamanı iqtisadi islahatların aparılmasına dair mövcud normativ sənədlər də əsas götürülmüşdür.

Tədqiqat obyekti olan arıçılıq təsərrüfatları əsasən şəxsi təsərrüfatlardan ibarət olduğu üçün statistik məlumatlar əksərən sorğu əsasında tərtib edilmişdir.

Tədqiqat prosesində müqayisəli iqtisadi təhlil, iqtisadi-statistik qruplaşdırma, statistik qruplaşdırma, və müşahidə metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- iqtisadi idarəetmə sisteminin elementləri və ona təsir edən amillərdən asılı olaraq arıçılıq təsərrüfatlarının təşkili və iqtisadi idarə edilməsi mexanizmlərinin təhkimilləşdirilməsinin əsaslandırılması üçün təkliflər işlənib hazırlanması;

- aqrar sahədə davamlı inkişafın təmin olunmasının xarakterik cəhətlərinin araşdırılması və ərzaq təhlükəsizliyində onun rolunun əsaslandırılması;

- arıçılıq təsərrüfatlarının təşkili və idarə edilməsi metodikasının hazırlanması və korporativ idarəetmənin bu sahəyə tətbiqi imkanlarının müəyyən edilməsi;

- arıçılıq təsərrüfatlarının mövcud durumu və təbii-iqlim şəraitinə uyğun olaraq regionlarda yerləşdirilməsini şərtləndirən amillərin əsaslandırılması;

- arıçılıq təsərrüfatlarının təşkilində sahibkarlığın rolunun araşdırılması, dövlət dəstəyi və tənzimlənməsinin təkmilləşdirilməsi metodikasının hazırlanması;

- müasir arıçılıq təsərrüfatlarının yaradılması modeli, sənaye əsasında təşkili və onun tətbiqi sxemi;

- arıçılıq məhsulları marketinqinin təşkili və təkmilləşdirilməsinin elmi cəhətdən əsaslandırılması;

- arıçılıq təsərrüfatlarının investisiya və maliyyə mexanizmləri-

nin təkmilləşdirilməsinin elmi əsaslandırılması;

- arıçılıq məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında qiymət mexanizminin təkmilləşdirilməsi modeli və tətbiqi sxeminin digər təkliflərin hazırlanması.

**Tədqiqatın elmi yeniliyi** aşağidakılardan ibarətdir:

- Respublikamızda ilk olaraq arıçılıq təsərrüfatlarının təşkili və iqtisadi idarəetmə mexanizmləri  açıqlanmışdır;
- Aqrar sahənin davamlı inkişafının təmin olunmasının mahiyyəti və məzmun elementlərinə aydınlıq gətirilmişdir;
- Arıçılıq təsərrüfatlarının təşkili formaları sahəsində beynəlxalq təcrübə ümumiləşdirilmiş və Azərbaycanda onlardan istifadənin istiqamətləri müəyyənləşdirilmişdir;
- Aqrar sahədə fəaliyyət göstərən arıçılıq təsərrüfatlarının inkişafının müasir vəziyyəti və ona təsir edən amillər təhlil edilmiş, perspektiv inkişaf istiqamətləri müəyyən edilmişdir;
- Arıçılıq təsərrüfatlarının təşkilinin bölgələrin təbii-iqlim şəraitindən və bitki örtüyündən asılı olaraq yerləşdirilməsi elmi əsaslandırılmışdır;
- Arıçılıq sahəsində sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyinin əhəmiyyətinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər verilmışdır;
- Arıçılıq təsərrüfatlarının təşkili və idarə edilməsi metodikası elmi əsaslandırılmış və korporativ idarəetmnin bu sahəyə tətbiqi istiqamıtləri müəyyən edilmişdir;
- Arıçılıq təsərrüfatlarının investisiya və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi elmi cəhətdən saslandırılmışdır;
- Arıçılıq məhsullarının istehlakçılara çatdırılması və marketinqinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir;
- Arıçılıq təsərrüfatlarının iqtisadi idarəetmə mexanizmini təkmilləşdirmək və sahənin səmərəliliyini artırmaq, regionların potensial imkanlarından (*iqtisadi, maddi-texniki, təbii*) səmərəli istifadə etmək üçün kompleks təkliflər işləyib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyətinin** əsasını mövcud iqtisadi nəzəriyyələr, dünya və ölkə iqtisadçı alimlərinin əsərləri, “Arıçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu, arıçılıq fəaliyyəti ilə məşğul olan dövlət və özəl qurumlar, Azərbaycan Arıçı-

lar İttifaqı, rayonlarda fəaliyyət göstərən arıçılar birlikləri, arıçıların fəaliyyəti ilə bağlı olan normativ-hüquqi sənədlər, ölkə prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərar və sərəncamları təşkil edir. Tədqiqat zamanı əldə edilən nəzəri biliklər arıçılıq üzrə elmi-pedaqoji kadr hazırlığının tədris prosesində və elmi-tədqiqat işlərində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələrinin praktiki əhəmiyyəti Azərbaycan Arıçılar İttifaqında, Azərbaycan Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun "Arıçılıq" mərkəzinin Elmi-texniki Şurasında müzakirə edilərək bəyənilmiş və tətbiqi məqsədəuyğun görülmüşdür. (Protokol №5, 22 iyun 2016-cı il). Bundan başqa dissertasiya işinə Rusiyanın Stavropol Vilayətinin Şimali Qafqaz Federal Universitetindən müsbət rəy verilmişdir.

Tədqiqatın nəticələri Contermporary features of formation and development of the beekeeping farms in Azerbaijan //- Materialy X miedzynarodowej aukowi-praktyczney konferencji 07-15 marca 2014 roku; Beynəlxalq Elmi-Praktik Konfrans (ADAU-un 85 illiyinə həsr olunmuş 2014-cü il Gəncə) "Azərbaycanda regionlar üzrə arıçılıq təsərrüfatlarının yerləşdirilmə-si üçün ilkin şərtlər"; Modern research and development Fhilodelfia, USA № 09(29) - 2015 "İmproving the delivery and marketinq of beekeeping products to consumers"; Monoqrafiya (AzETİİ, Gəncə, 2015) "Arıçılıq təsərrüfatlarının təşkili və idarəetmə mexanizminin təkmilləşdirilməsi"; Materials of the International Scientific Practical Conferense (2015 Marseille, Fransa) "About regulation of beekeeping farm prices by the state"; "Azərbaycanda arıçılıq Arıçılığın inkişafına dair Azərbaycan - Türkiyə Elmi-Tədqiqat əməkdaşlığı" toplantısı - II (9 iyun 2015, Gəncə) "Azərbaycanda arıçılıq təsərrüfatlarının müasir vəziyyəti və onun inkişaf istiqamətləri"; Beynəlxalq Elmi-Praktik Konfrans (2015, Gəncə ATU) "Arıçılıq təsərrüfatlarının yerləşdirilməsi və sənaye əsasında təşkili"; Components Scientific and Teehnological Progress (№3(25) 2015) "Curent State and Development of Beekeeping in Azerbaijan"; Экономика и предпринимательство (№12 Москва, 2015) «Основ-ные направления организации пчеловодства на современном этапе»; Benəlxalq Elmi-Praktik Konfrans" (ATU, Gəncə, 2016) "Arıçılıq təsərrüfatlarının

iqtisadi səmərəliliyinə ekoloji amillərin təsiri"; Наука и бизнес. Пути развития. (Москва, 2016) «Совре-менные состояние и развитие пчеловодство в Азербайджане»; Вестник Омского Регионалного Института научно-практический журнал (Омск, №1 2017) «Повышения инвестиционных вложений в пчеловодство»; Монография Palmarium academic publishing «Организация и управление пчеловодства в Азербайджане» 2017 стр.239;The efficiency of the ecological factors to the economical productivity the Apiculture. №1, 2018, Australian Journal of Education and Science; "Müasir arıçılıq təsərrüfatlarının təşkilinin bəzi məsələləri" Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi əsərləri,. 2018. № 1; "Arıçılığın inkişafı və onun turizmə təsiri" Kənd təsərrüfatının iqtisadiyyatı №2(32), 2020, müzakirə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun Arıçılıq mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi girişdən, dörd fəsildən, və nəticədən ibarətdir. 156 adda ədəbiyyat siyahısı göstərilmişdir. Dissertasiyanın məzmunu 229 səhifə kompüter yazısı həcmində olub o, cümlədən giriş 11 səhifə - 22408 işarə, I fəsil 41 səhifə - 86678 işarə, II fəsil 55 səhifə - 110656 işarə, III fəsil 49 səhifə - 99693 işarə, IV fəsil 50 səhifə - 98751 işarə, nəticələr 9 səhifə - 20304 işarə təşkil edir. Dissertasiyada 13 sxem, 2 şəkil, 9 cədvəl vardır. Dissertasiyanın həcmi 229 səhifə kömpüter yazısından ibarət olmaqla, ümumi həcmi 462350 işarəni (istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr istisna edilməklə 441659 işarə) təşkil edir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat mövzusunun aktuallığı, məqsəd və vəzifələri, elmi yenilik və alınmış nəticələrin praktiki əhəmiyyəti verilmişdir.

**Birinci fəsil**:-"Azərbaycanda arıçılıq təsərrüfatlarının təşkili və iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsnin nəzəri-metodoloji əsasları" adlanır. Burada aqrar sahənin davamlı inkişafı-nın təmin olunmasını mahiyyəti və məzmun elementləri, arıçılıq təsərrü-

fatlarının formalaşması və inkişafı aqrar sahənin mühüm problemi kimi, respublikamızda aqrar sahədə struktur dəyiçiklikləri və infrastrukturların yaradılması problemləri tədqiq edilmişdir.

Bizə məlumdur ki, bazar iqtisadiyyatı şəraitində aqrar sahə yeni məzmunla və mühüm sosial-iqtisadi şəraitdə fəaliyyət göstərməsi ilə xarakterizə edilir.

Bu gün Respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin davamlı olaraq tələb olunan kəmiyyət və keyfiyyətdə ərzaq məhsullarına olan tələbatının ödənilməsi baxımından qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilir.

Azərbaycanda arıçılıq çox qədim təsərrüfat formalarından biri olub, kənd təsərrüfatının ekoloji baxımdan təhlukəsiz növlərindən biridir. Bu gün bütün dünyada o, cümlədən ölkəmizdə ərzaq təhlükəsizliyi məsələlərinin qlobal əhəmiyyət daşıdığı müasir dövrümüzdə arıçılıq təsərrüfatlarının inkişafına xüsusi diqqət yetirilir.

Arıçılıq təsərrüfatlarının formalaşmasının və yerləşdirilməsinin aşağıdakı şərtlər əsasında aparılması daha məqsədəuyğundur:

- arıxanaların balverən bitki ehtiyatlarına yaxın məsafədə yerləşdirilməsi;
- pətəklərin yerləşdirilməsi üçün sahənin düzgün seçilməsi;
- arıların alınmasının və daşınmasının, norma və qaydalara uyğun həyata keçirilməsi;
- arıçılıq təsərrüfatlarının pətək və arıçı avadanlıqları ilə təminatının təşkil olunması.

Aqrar sahədə strukturların seçilməsi və yerləşdirilməsi mühüm amillərdən biridir. Aqrar sahədə infrastrukturların xarakteistikasına nəzər salsaq görərik ki, bu sahədə struktur siyasəti, onu əmələ gətirən ünsürlərin hər birinə ayrı-ayrılıqda və onların bir-biri ilə qarşılıqlı surətdə əlaqələndirilməsinə xüsusi diqqət yetirildikdə vəzifələr müvəffəqiyyətlə həyata keçirilə bilir.

Müasir şəraitdə aqrar sahədə fəaliyyət göstərən istehsal strukturlarının inkişaf etməsinə daha güclü təkan verən amil dövlətin bu sahədə həyata keçirdiyi vergi siyasətidir. Belə ki, aqrar sahədə fəaliyyət göstərən istehsal strukturları torpaq vergisi istisna olunmaq-la, qalan bütün vergi növlərindən və ödəmələrindən azad olunmuşlar, bu da onların maliyyə imkanlarının artması və geniş təkrar istehsalı həyata

keçirmək baxımından əvvəlki dövrlə müqayisədə daha əlverişli şəraitə malik olduqlarını göstərir.

Aqrar sahədə struktur siyasətinin iqtisadi ünsürlərinin fəaliyyət göstərməsinin əsasında dəyər qanunu durur. Təəssüf ki, milli iqtisadiyyatın aqrar bölməsində bu qanunun tələblərinə riayət olunmur. Belə ki, kənd təsərrüfatı məhsullarının qiymətləri onların istehsalına sərf olunmuş ictimai-zəruri məsrəfləri ödəmir və geniş təkrar istehsalı həyata keçirmək üçün kifayət etmir.

Hazırda ölkəmizdə aparılan aqrar struktur siyasəti, müasir dövrün tələblərinə uyğun ünsürlərin yaradılmasına bu sahədə, ünsürləri arasında keçmişdə mövcud olan uyğunsuzluğun aradan qaldırıl-masına və yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırmağa yönəldilmişdir.

Ölkədə aqrar bölmədə həyata keçirilən struktur siyasəti, bu sahənin spesifik xüsusiyyətlərini nəzərə almaqla, aşağıdakı məqsədlərə nail olunmasını nəzərdə tutur: sahənin müasir maddi-texniki təminatı, əhalini yüksək keyfiyyətli və lazımi miqdarda qida məhsulları, emal sənayesini keyfiyyətli xammalla təchiz etmək; dayanıqlı istehsal şəraitinin yaradılması; aqrar bazarın əmtəələrlə təmin edilməsi və inkişafı; kənd əhalisinin həyat səviyyəsinin və sosial-iqtisadi problemlərinin həlli imkanların formalaşdırılması və s.

Aqrar sahədə satış və istehsal infrastrukturunun zəif olması, bu sahənin spesifik xüsusiyyətlərinin tələblərinə cavab verən maddi-texniki resurslar bazarının formalaşmaması və s. səbəblərdən torpaq payı almış ailələr kollektiv müəssisələrdə birləşərək sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa üstünlük verirlər. Torpaq payı almış ailələrin istehsal-satış prosesi zamanı qarşılaşdıqları çətinliklər aradan qaldırıldıqca, aqrar sahədə fəaliyyət göstərən istehsal strukturları da dəyişəcək və onun aqrar siyasətə adekvat olan yeni texniki ünsürləri formalaşacaqdır.

Yuxarıda qeyd edilənlər nəzərə alınmaqla, sxem 1-də aqrar sahədə strukturların təsnifatı göstərilmişdir.




**Sxem 1. Strukturları xarakterizə edən ünsürlər (müəllif tərəfindən tərtib edilmişdir).**

İslahatların davam etdiyi indiki şəraitdə həyata keçirilən aqrar struktur siyasəti qarşıya çıxan problemlərin həlli üçün aşağıdakı vasitələrdən istifadə edilməsi məqsədəuyğun hesab edilə bilər:

− aqrar bölmədə iqtisadiyyatın şaxələndirilməsinin təmin edə biləcək struktur dəyişiklikləri və aqrar iqtisadiyyatın stimullaşdırılması;

− aqrar bölmədə xüsusi sahibkarlığın daha da inkişaf etdirilməsini həyata keçirməklə, müxtəlif təşkilati-hüquqi formalı təsərrüfatların əlaqələndirilməsinə nail olunması;

– aqrar bölmədə əmək məhsuldarlığının yüksəldilməsi yolu ilə bu sahədə çalışanların gəlirlərinin artırılması və burada çalışanların gəlirlərinin digər sahələrin gəlirləri səviyyəsinə çatdırılması;

– kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan və bu məhsulların emalı müəssisələrində çalışanlara elmi məsləhətlərin verilməsi;

– aqrar bölmədə istehsal-satış prosesinin idarə olunması konsepsiyası kimi marketinqin təşkili və bu barədə bilgilərin verilməsı;

– iqtisadi təhlükəsizliyi və onun tərkib ünsürü kimi ərzaq təhlükəsizliyini təmin etmək üçün yerli istehsalçılara maliyyə dəstəyinin və onların mənafelərinin dövlət tərəfindən müdafiəsi;

– aqrar sahənin sosial infrastrukturlarının təkmilləşdirilməsinin həyata keçirilməsi;

– aqrar bazarın müasir tələblərə uyğun formalaşdırılması və istehsalçıların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi;

– kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növlərinə (taxıla, pambığa, tütünə, ətə və s.) təminatlı qiymətlərin tətbiqi və əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında əvəzedilməz rol oynayan heyvandarlıq məhsullarının istehsalı üçün dotasiyaların ayrılması;

– kənd təsərrüfatının istehsal potensialından səmərəli istifadə etmək üçün dövlət proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi. Belə proqram, eyni zamanda ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçılarını müasir kənd təsərrüfatı texnikası ilə təmin edə biləcək kənd təsərrüfatı maşınqayırması sahəsinin inkişafı üçün də nəzərdə tutulmalıdır.

Professor B.X.Ataşovun qeyd etdiyi kimi, iqtisadiyyatın struktur dəyişiklikləri ilk növbədə yeni sistemin formalaşmasına xidmət edir. Sistemi təşkil edən ünsürlərin arasında qarşılıqlı əlaqələrinin qurulması əslində yeni sistemin qurulması kimi dəyərləndirilir. Zənnimcə, tədqiqat apardığım arıçılıq təsərrüfatlarının inkişaf etdirilməsi üçün ona xidmət edəcək infrastrukturların sistemli şəkildə qurulması zəruridir.

Aqrar sahə digər sahələrə nisbətən çox sahəlidir və əsasən kənd təsərrüfatı ilə sənayenin bir-birilə qarşılıqlı əlaqə və qarşılıqlı təsirdə olan yarımsahələrinin, onlara xidmət edən infrastrukturların fəaliyyətini özündə cəmləşdirir.

**İkinci fəsil** “Azərbaycanda arıçılıq təsərrüfatlarının mövcud durumunun təhlili və qiymətləndirilməsi” adlanır, burada arıçılıq təsərrüfatlarının müasir vəziyyəti, respublikamızda arıçılıq təsərrüfat-larının təşkilinin regional xüsusiyyəri və arıçılıq təsərrüfatlarının təş-kili və idarə edilməsini şərtləndirən amillər tədqiq olunmuşdur.

Araşdırmalar göstərir ki, 1960-80-ci illərdə respublikamızda ixtisaslaşdırılmış arıçılıq sovxozlarının təşkili, arıçılığa mütəxəssislər tərəfindən əməli köməklik göstərilməsi xeyli yaxşılaşmışdır. Əvvəlcə mövcud xırda arıçılıq təsərrüfatları kolxoz və sovxozların nəzdində yaradılmış, sonradan isə inkişaf edərək iri arıçılıq təsərrüfatlarına çevrilmişdir.

Araşdırmalarımıza görə, 2007-2011-ci illərin yaz-yay mövsümlərində Azərbaycanda, Böyük Qafqazın şimal-şərq düzənlik zonasında hər il arıların 25-60% tələf olmuşdur. 2008-ci ilin qış-yaz mövsümündə Böyük Qafqazın dağətəyi qurşağında arıların 30%, payızda isə 60% tələf olmuş, arıxanaların bir hissəsi arı ailələrinin 90%-ni itirmişdir.

Arıçılıq həmdə böyük sərmayə yatırımı tələb etməyən yüksək gəlirli istehsalatdır. Arıçılıq kiçik fermer biznesi şəklində 1,5-2 il ərzində özünü doğruldur, hər cür infrastruktur və müəyyən texnlogiya ilə təchiz edilərsə, sahənin öz xərcini çıxarmasına zəmanət verir. Bu gün respublikamızda arıçılığın inkişaf etdirilməsi 6-8 mindən çox kənd ailəsini yaxşı gəlirlə təmin edə bilər. Respublikamızda arıçılıq məhsullarının istehsal potensialı, minimum tələbat və təminat göstəricilərinin müqayisəsinə nəzər salaq:

Cədvəl1-dən göründüyü kimi, respublikamızda arıçılığın inkişafı üçün mövcud təbii-iqlim şəraiti və digər potensialından səmərəli istifadə edilmir.

Ölkəmizdə arıçılıq məhsulları istehsalı üzrə potensial imkandan istifadə faizi aşağı səviyyədədir. Buna bir çox obyektiv və subyektiv amillər təsir göstərir. Bu amillərdən biri də arıçılığın inkişafında təbii şəraitinə və bitki örtüyünə görə xüsusilə əhəmiyyətli olan uzun müddət işğal altında qalmış Qarabağ zonasıdır.

2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin başçılığı altında Şanlı ordumuz tərəfindən işğal altında olan ərazilərimizin düşmən tapdağından azad edilməsi, arıçılığın bu ərazilərdə inkişaf etdirilmə-

sinə və ümumilikdə ölkəmizdə arıçılığın inkişafına öz töhfəsini verəcəkdir.

**Cədvəl 1. Arıçılığın inkişafının potensial, minimum tələbat və təminat göstəricilərinin müqayisəsi**

| № | Göstəricilərin adı | Ölkənin potensialı | Ölkənin minimum tələbatı | Ölkədə mövcud vəziyyət | Potensialdan istifadə, %-lə | Minimum tələbatın ödənilməsi, %-lə |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1 | Arı ailəsi, ədəd | 600000 | 400000 | 240000 | 40,0 | 60,0 |
| 2 | Ana arı, ədəd | 300000 | 70000 | 4000 | 1,3 | 5,7 |
| 3 | Arı paketi, ədəd | 20000 | 10000 | 1000 | 5,0 | 10,0 |
| 4 | Bal, t | 15000 | 4500 | 1600 | 10,6 | 35,5 |
| 5 | Çiçək tozu, t | 250 | 180 | 0,5 | 0,2 | 0,27 |
| 6 | Bərəmum, t | 12 | 6 | 0,8 | 6,7 | 13,3 |
| 7 | Arı südü, t | 10 | 4,5 | 0,06 | 0,6 | 1,3 |

***Mənbə**: Cədvəl respublikamızda arıçılıgın inkişafı üçün mövcud təbii-iqlim şəraiti və digər potensial imkanları və bu sahədə mütəxəssis fikirləri və rəyləri əsasında tərtib olunmuşdur.*

Araşdırmalardan məlum olur ki, hazırda respublikamızda arıçılıq sahəsində müəyyən tədbirlər həyata keçirilsə də, fikrimcə bu sahədə həllini gözləyən xeyli problemlər mövcuddur:

Müasir dövrdə respublikamızda arıçılığın problemlərini aşağıdakı kimi təsnifləşdirmək olar:

Ümumilikdə, arıçılıq təsərrüfatlarının problemləri Sxem 2 - də qeyd edilmişdir:

- Daxili amillərə görə;
- Xarici amillərə görə.

Daxili amillərə aşağıdakılar aiddir:

Bal potensialının istifadəsinə təbii - məhdudiyyət, bal arılarının genefondunun böhranlı vəziyyəti;

- kadrların ixtisasının artırılmasına səy göstərilməməsi, gənclərin bu sahəyə marağının az olması və meyl göstərməməsi;
- maliyyə vəsaitlərinin zəif olması, avadanlıqların və inventarların köhnəlib sıradan çıxması və müasir tələblərə cavab verən avadanlıqların olmaması.




**Sxem 2. Arıçılıq təsərrüfatlarının problemləri müəllif tərəfindən tərtib edilmişdir.**

Xarici amillərə aşağıdakılar aiddir:

- təşkilati-idarəetmə sistemində olan idarəetmə çatışmamazlıqları;
- müəssisələrin və arıçılıq məhsulları bazarının nizamlanması üçün vacib olan qanun və standartların olmaması;
- məlumat bazasının zəif olması.

Arıçılıq təsərrüfatlarının daxili amilləri yüksək potensiala malikdir və inkişaf etdirilə bilər, xarici amillər isə nisbi zəif inkişafda xarakterizə olunur və ləngimiş inkişaf kimi özünü göstərir.

Respublikamızda arıçılığın bu günkü böhranlı vəziyyətdə olma-

sını, arıçılıq məhsullarının istehsalının aşağı düşməsi və sosial-iqtisadi problemlərin artması kimi xarakterizə etmək olar. Bu problemlər əsasən aşağıdakılardır:

- dövlət nizamlanmasının aşağı səviyyədə olması;
- hüquqi-normativ bazanın zəif olması;
- istehsalçı və istehlakçı arasında sayda vasitəçilərin olması.

Respublikamızda arıçılığın problemlərinin həll edilməsi üçün Elmi-Tədqiqat mərkəzlərinin xüsusi rolu vardır.




**Sxem 3. Müasir arıçılıq təsərrüfatlarının formalaşması və əlaqələri (müəllif tərəfindən tərtib edilmişdir).**

Sxem 3-dən göründüyu kimi, müasir arıçılıq təsərrüfatları yaradılarkən müxtəlif sahələr üzrə mütəxəssislərin birgə fəaliyyəti və

təsərrüfatlara xidmət edəcək infrastrukturların olması zəruridir.

Lakin respublikamızda bu sahənin inkişaf etdirilməsi üçün münbit şərait yaranmasıdır. Bu sahənin inkişaf etdirilməsi üçün hesab edirik ki, elm adamları, alimlərimiz özlərinin birgə konsepsiyalarını hazırlamalı, müasir arıçılıq təsərrüfatların yaradılması istiqa-mətində elmi - tədqiqat işləri aparmaları zəruridir. Arıçılıq təsərrüfatlarının səmərəli fəaliyyət göstərə bilməsi üçün müxtəlif sahələrin mütəxəssisləri birgə fəaliyyət göstərməlidir:

- bioloqlar bu sahənin bioloji məsələlərini;
- ekoloqlar, sahəyə təsir edəcək ekoloji amilləri;
- respublika və yerli icra hakimiyyəti orqanları;
- iqtisadçılar, sahənin iqtisadi məsələlərini və s. araşdırmalı və nəzarətdə saxlamalıdırlar.

Arıçılıq təsərrüfatında işlərin açıq səma altında həyata keçirilməsi, təbii fəlakətlərin yaratdığı fəsadların qarşısının tam şəkildə alınmasına imkan vermir.

Respublikamızda arıçılıq təsərrüfatlarının regionlar üzrə yerləşdirilməsi, inkişaf etdirilməsi və arıçılıq məhsullarının istehsalı bilavasitə ayrı-ayrı regionlarda bitki örtüyündən və həmin ərazidə yerləşən bitki örtüklərinin bir hektarının nektar məhsuldarlığından asılıdır. Arıçılığın inkişaf etdirilməsində və arıların formalaşmasında əkin bitkilərinin özünə məxsus təsiri daima diqqətdə olmuşdur.

Cədvəl 2-dən göründüyü kimi, respublikamızda ayrı-ayrı iqtisadi və botaniki-coğrafi rayonlarda bitkilərin zənginliyinə və digər xüsusiyyətlərə görə arı ailələrinin sayı və onların artım dinamikası göstərilən illər üzrə müxtəlifdir.

Dövlət Statistika Komitəsinin 2020-ci ilin yanvar ayının 1-nə olan məlumatına görə respublikamızda 542,8 min arı ailəsi (vahid) mövcuddur. Respublikamızın ərazisində bir arı ailəsinin orta illik məhsuldarlığı hava şəraitinin əlverişli olduğu illərdə 10-12 kq, əlverişsiz olduğu illərdə isə 3-5 kq -dır. 2019-cu il hər arı ailəsindən orta hesabla 10,7 kq olmaqla 5,8 min tona yaxın bal istehsal olunmuşdur.

Arıçılıq təsərrüfatlarının sənaye əsasına keçırılməsi prosesi mürəkkəb və uzun müddətli proses olub, maddi-texniki bazanın möhkəmlənməsini, məhsul istehsalı texnologiyasının mütərəqqi üsullarının tətbiqini tələb edir.

**Cədvəl 2.** Azərbaycanın iqtisadi rayonları üzrə arı ailələrinin dinamikası (ailə)

| № | İllər / İqtisadi Rayonlar | 2010 | 2012 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Abşeron iqtisadi rayonu | 849 | 980 | 1080 | 1051 | 1155 | 951 | 3010 | 2750 |
| 2 | Gəncə-qazax iqtisadi rayonu | 33434 | 34314 | 35431 | 37107 | 35000 | 39594 | 73754 | 78144 |
| 3 | Şəki-Zaqatala iqtisadi Rayonu | 31886 | 37716 | 39820 | 41625 | 44037 | 46211 | 101597 | 106044 |
| 4 | Lənkəran iqtisadi rayonu | 24770 | 28059 | 30515 | 32483 | 33595 | 38218 | 69081 | 60774 |
| 5 | Quba-Xaçmaz iqtisadi rayonu | 12215 | 13627 | 14677 | 15137 | 15120 | 16194 | 45806 | 45983 |
| 6 | Aran iqtisadi rayonu | 5464 | 6198 | 7083 | 7553 | 8068 | 8507 | 37015 | 41394 |
| 7 | Yuxarı-Qarabaxi qtisadi rayonu | 5264 | 6786 | 8021 | 8136 | 8054 | 8407 | 25829 | 26341 |
| 8 | Kəlbəcər-Laçın iqtisadi rayonu | 11515 | 15946 | 18509 | 19414 | 19439 | 20591 | 37961 | 37888 |
| 9 | Dağlıq-Şirvan iqtisadi rayonu | 15143 | 16542 | 17633 | 18331 | 21089 | 21943 | 42710 | 43741 |
| 10 | Naxçıvan iqtisadi rayonu | 52685 | 65183 | 69422 | 70396 | 70537 | 71068 | 72350 | 99798 |
| | Cəmi: | 193225 | 225355 | 243046 | 251233 | 260094 | 271682 | 500980 | 542817 |

***Mənbə:*** *Müəllif tərəfindən Azərbaycan Kənd Təsərrüfatı Dövlət Statistika Komitəsi Bakı-2020 məlumatlarından istifadə etməklə tərtib olunmuşdur. s.636-637*

Arıçılığın sənaye əsasına keçirilməsi zamanı sahələrarası və təsərrüfatlar arası ixtisaslaşmadan istifadə olunması xüsusi əhəmiy-yətə malikdir. Bu cür ixtisaslaşma zamanı aşağıdakı istiqamətlərin seşilməsi daha məqsədəuyğundur:

- ballıq;
- ballıq- tozlandırıcı;
- arıyetişdirmə.

Arıçılıq, bitkiçilik və hava şəraitiilə üzvi surətdə bağlı olduğu üçün az zəhmət və vəsait xərcləməklə maksimum məhsul əldə etmək üçün ixtisaslaşmanın həyata keçirilməsi, təbii ehtiyatlardan və işçi qüvvəsindən səmərəli istifadə olunması zəruridir.

Müasir şəraitdə arıçılıqda ixtisaslaşma bir neçə istiqamətdə aparılır:

- Sahədaxili ixtisaslaşma. Bu ixtisaslaşma yalnız bir növ məhsul almaq üçün tətbiq edilir.

- Təsərrüfat daxili ixtisaslaşma. Belə ixtisaslaşma təsərrüfat daxilində həyata keçirilməklə müəyyən məhsul üzrə həyata keçirilir.

- Texnoloji ixtisaslaşma. Hər hansi bir arıçılıq təsərrüfatında müəyyən növ məhsul almaq üçün müxtəlif istehsalat proseslərini ayrı-ayrılıqda yerinə yetirən ilk istehsalat bölmələrinin fəaliyyəti təmin olunur.

Arıçılıq təsərrüfatlarının ixtisaslaşmasını sxematik olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:




**Sxem 4. Müasir şəraitdə arıçılıqda ixtisaslaşma istiqamətləri (müəllif tərəfindən tərtib edilmişdir).**

Sxem 4.-dən göründüyü kimi, 3 istiqamətdə ixtisaslaşmanın aparılması məqsədəuyğundur. Ümumilikdə, yuxarıda sadalananları nəzərə almaqla bu gün respublikamızda arıçılıq təsərrüfatlarının təşkili və idarəedilməsi öz aktuallığı ilə diqqəti cəlb edir.

Ölkə iqtisadiyyatında korporativ idarəetmənin əhəmiyyətinin durmadan artmasını nəzərə almaqla, arıçılıq təsərrüfatlarının yaradılmasında və idarə olunmasında iqtisadi fəaliyyətin bu formasının tətbiq olunması məqsədəuyğun olardı. Məlumdur ki, investorlar şirkətlərinin rəqabət qabiliyyətliliyini, maliyyə vəziyyətini ciddi nəzarətdə saxlayırlar. Bu baxımdan korporativ idarəetmə sisteminin tətbiqi daha aktual məsələyə çevrilmişdir. Bu baxımdan müasir şəraitdə arıçılıq təsərrüfatlarında da bu sistemin tətbiqi zəruridir.

Biznesin təşkilati-hüquqi forması kimi, səhmdar cəmiyyət formasında yaradılan arıçılıq təsərrüfatının başlıca üstünlüyü sadə vətəndaşların maliyyə resurslarının cəlb edilməsi imkanı sayılır. Bu xü-

susilə də, indiki şəraitdə insanlara çox böyük olmayan miqdarda kapital tələb etməyən sahə olan, arıçılıqla məşğul olmağa imkan verir. Bu onunla əlaqədardır ki, ölkəmizdə biznesin inkişafı üçün yaradılmış bu şəraitdən hər bir vətəndaş yararlanmaq imkanı əldə etmişdir.

Fikrimizcə, səhmdar cəmiyyətlərinin kollektiv sahibkarlığın digər növlərindən fərqləndirən aşağıda qeyd olunan cəhətləri, məhz onun müasir dövrdə arıçılıq təsərrüfatlarının yaradılmasında istifadə olunmasının məqsədəuyğun olmasının əsaslı olduğunu bizə isbat etmiş olur.

**Üçüncü fəsil“** Azərbaycanda aqrar sahədə arıçılıq üzrə sahibkarlığın təşkili və idarə edilməsi istiqamətləri” adlanır. Burada aqrar sahədə aparılan islahatlar və iqtisadi idarəetmə istiqamətləri, arıçılıq sahəsində sahibkarlıgın inkişafına dövlət dəstəyi və tənzimlənməsi məsələləri, arıçılıq məhsulları marketinqinin təşkili və təkmilləşdirilməsi, rəqabət qabiliyyətli arıçılıq məhsulları istehsalı və reallaşdırılmasında marketinqin təşkili istiqamətləri tədqiq edilmişdir.

Respublikamızın iqtisadi inkişaf modeli - hər bir istehsal və təsərrüfat subyektinin - coğrafi mənada ərazinin, sosial-iqtisadi mənada isə xalqın, millətin iqtisadi - sosial, psixoloji mənafelərini özündə birləşdirən, respublikanın dövlət müstəqilliyinin təmin olunması prinsiplərinə söykənən bazar iqtisadiyyatının formalaşdırılması əsasında iqtisadi metodlarla idarə olunan milli, iqtisadi-sosial tərəqqimizin gələcək stateji məqsədlərinin əsas cəhətlərini özündə ifadə etməlidir.

Ölkəmizin iqtisadi inkişaf modeli əsasən bütün sahələri əhatə edir və bu sahələrdən biri olan aqrar sahədə də aparılan ciddi elmi axtarışlar nəticəsində fəaliyyətdə olan subyektlərin modernləşdirilməsi və təkmilləşdirilməsi zərurətini qarşıya qoyur.

Respublikamızda aqrar sahədə aparılan iqtisadi islahatların əsas istiqamətlərindən biri də iqtisadi idarəçilik islahatıdır. Belə ki, aqrar sahədə ənənəvi, inzibati sistemdən bazar münasibətlərinə keçid müxtəlif ölkəkərdə bır sıra ümumi meyllərə malik olub, dərin köklü dəyişikliklərin bünövrəsi kimi yeni iqtisadi sistemin formalaşması üçün fundamental və etibarlı dayaqların yaranmasına və aqrar sahədə də makroiqtisadi sabitliyin əldə olunnmasına şərait yaratmışdır.

Aqrar sahədə bazar münasibətlərinin normal inkişafı respublika

iqtisadiyyatında iqtisadi problemlərin nə dərəcədə uğurlu həllinə nail olunmasından asılıdır. Müasir dövrdə başlıca məqsəd aqrar sahədə iqtisadi idarəetmənin təkmilləşdirilməsi, bu sahədə dövlətin strateji maraqlarının təmin edilməsi və qorunması, əhalinin az təminatlı təbəqəsinin, heç bir kommersiya gəlirlərinə malik olmayan bütün üzvlərinin dövlət dəstəyindən yararlanmasının təmin olunmasından ibarətdir.

Respublikamızın təbii - iqlim, iqtisadi və sosial amilləri nəzərə alınmaqla, aqrar bölmənin inkişaf istiqamətləri müəyyən edilmiş, dövlətin yaxın gələcəkdə aqrar siyasəti formalaşdırılmış, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına, qabaqcıl elmi nailiyyətlərin tətbiqi və elmi cəhətdən əsaslandırılmış idarəetmə üçün iqtisadi mexanizmin təkmilləşdirilməsinə əlverişli şərait yaranmışdır.

Aparılan araşdırmalardan belə məlum olur ki, kənd təsərrüfatı məhsulları istehsalı ilə emal müəssisələri arasında qarşılıqlı əlaqələr və idarəetmə o zaman səmərəli olar ki, onlar arasında qurulmuş ikitərəfli əlaqələr onların ümumi mənafelərini ödəməklə, son məhsul istehsalına qədər davamlı olmalıdır. Yəni emal müəssisələri, kəndli təsərrüfatlarının hər növ müəssisələrinin inkişafında maraqlı olmalı və mənafelərin ümumiliyinin və əlaqələndirmə mexanizminin mövcudluğu şəraitində kooperasiyaya əsaslanan səhmdar cəmiyyətlərinin, kooperativlərin və s. yaradılması yolu ilə həyata keçirilməlidir.

Respublikamızda kənd təsərrüfatında innovasiya yönümlü sahibkarlığın inkişaf etdirilməsi zərurəti ortaya çıxmışdır. İqtisadiyyatımızın və onun tərkib hissəsi olan kənd təsərrüfatının inkişafının əsasında innovasiyaların inkişafının yeni, daha keyfiyyətli səviyyəsinə keçid durur. Bu baxımdan innovasiyanın idarə edilməsi əsas şərtlərdən biri olmalıdır.

Kənd təsərrüfatının müasir vəziyyətinin və bazar iqtisadiyyatı şəraitində inkişaf perspektivlərinin təhlili göstərir ki, bu sahəni daha da inkişaf etdirmək və ölkədə ərzaq təhlükəsizliyi məsələsini həll etmək üçün innovasiyalı inkişaf yolunu tutmaq və yüksək məhsuldarlığı olan xarici texniki və texnoloji yenilikləri tətbiq etmək lazımdır.

Tədqiqat göstərir ki, iqtisadi idarəçilikdə sahibkarlıq fəaliyyətinin və xüsusilə də investisiyalardan istifadəsinin stimullaşdırılması və təkmilləşdirilməsi mühüm məsələlərdəndir.

Aqrar sahədə yaradılmış istehsal sahələrində fəaliyyət göstərən sahibkarlar istehsal etdikləri məhsulları həm daxili bazarlarda realizə etməli, həm də xarici bazarlara çıxarmağı bacarmalıdırlar. Odur ki, müəyyən infrastrukturların birgə fəaliyyət göstərməsi zəruridir.

Ölkəmizdə fəaliyyət göstərən sahibkarlar xarici sahibkarlarla iş birliyi qurmağa çalışmalı, onların təcrübəsindən yararlanmağı bacarmalıdırlar. Bu zaman istehsalın texniki və texnoloji səviyyəsinə dövlət yardımı gücləndirilməli və istehsal sahəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi ilə əlaqədar intelektual sahibkarlıq formaları ilə məşğul olan sahibkarlıq təşəbbüsü artırılmalıdır.

İstehsalla məşğul olan müəssisələrin stimullaşdırılması üçün onlar kommersiya müəssisələrindən dövlət səviyyəsində fərqləndirilməli, onlara geniş imkanlar, lazımi güzəştlər verilməlidir.

Yuxarıda sadalananları ümumiləşdirərək belə mülahizə yeritmək olar ki, ölkədə sahibkarlığın inkişaf etdirilməsi bilavasitə sahibkarlıq mühitindən asılıdır. Sahibkarlıq mühiti isə təkcə onda iştirak edən tərəflərin qarşılıqlı asılı olan fəaliyyətini deyil, həmçinin təsərrüfatda sahibkarlığa məxsus funksional əlaqələrin reallaşdırılmasını təmin edən müəyyən şərtlərin olmasını da ifadə edir.

Aparılan araşdırmalar nəticəsində respublikamızda mövcud olan sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi və səmərəli idarə edilməsi mexanizminin təmin olunması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi qənaətinə gəlmək olar:

- aqrar bölmənin inkişafının intensiv yolla həyata keçirilməsi və innovativ texnologiyalar tətbiqinin gücləndirilməsi;
- mövcud olan qeyri-rentabelli təsərrüfatçılıq formalarının səhmdar cəmiyyətləri formasında birləşdirilməsi;
- ölkədə kənd təsərrüfatında istehsalın artırılmasının qısa müddətdə təmin edilməsi üçün yeni müəssisələrin yaradılması;
- xarici investisiyaların, texniki vasitələrin və yeni texnologiyaların kənd təsərrüfatının inkişafına yönəldilməsinə nail olunması və s.

Respublikamızda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin elmi-nəzəri əsaslarının təhlil edilməsi təcrübi baxımdan dörd mərhələni müəyyənləşdirməyə imkan verir:

- sahibkarlıq fəaliyyəti sahəsində risklərin üstünlük təşkil etdiyi

ilkin kapital yığımı mərhələsi;

- sahibkarlıq fəaliyyətində innovasiya amilinin ön plana çəkilməsi ilə xarakterizə olunan mərhələ;
- iqtisadi sistemin tənzimləyici funksiyalarının fəallaşdırılması mərhələsi;
- fəaliyyətinin əsasını idarəetmə, iqtisadi, sosial-psixoloji, hüquqi metodlar təşkil edən sahibkarlıq subyektlərinin formalaşmağa başlaması mərhələsi.

İstehsalın müəyyənləşdirilməsində, məhsula qiymət qoyuluşunda, satış kanallarının seçilməsində, əldə edilən mənfəətin bölüşdürülməsində, həmçinin kooperasiya və inteqrasiya əlaqələrinin formalaşmasında təsərrüfat subyektləri tamamilə sərbəstdirlər və öz istehsal satış fəaliyyətlərinə dair qərarları müstəqil şəkildə qəbul edirlər. Bazar iqtisadi münasibətləri şəraitində aqrar sahənin əldə etdiyi sərbəstlik, həmin sahədə çalışanların şəxsi təsəbbüşkarlığı və seçim azadlığı keyfiyyətcə yeni sosial-iqtisadi sistemin formalaşmasına gətirib çıxarmışdır.

Respublikamızda sahibkarlığa geniş yer verilmiş, sahibkarın hüquq və vəzifələrinin müdafiə olunması və onların öz fəaliyyətini qura bilməsi üçün "Sahibkarlıq fəaliyyəti haqqında" qanun qəbul olunmuş, sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərin fəaliy-yəti üçün əlverişli şəraitin yaradılması təmin olunmuşdur. Zənnimcə bu qanunun tətbiqi Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifə-lərini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibət-lərinin tənzimlənəsinə şərait yaratmışdır.

Respublikamızda aqrar sektorda, o cümlədən arıçılıq sahəsində sahibkarlıq fəaliyyətinin formalaşdırılması, onun məzmun elementlərinin təşəkkül tapması, idarə olunmasının təkmilləşdirilməsi kimi mühüm istiqamətlər araşdırılmalı, müvafiq təklif və tövsiyələr işlənib hazırlanmalıdır. Müasir şəraitdə arıçılıq sahəsində sahibkarlığın həyata keçirilməsini təmin etmək üçün aşağıda göstərilən istiqamətlər əsas götürülməlidir:

- arıçılıq sahəsində sahibkarlıq fəaliyyətinin formalaşdırılmasına əsaslar yaratmaq;

- arıçılıqda sahibkarlıq mühitinin yaradılması və dəstəklənməsi;
- arıçılıqda sahibkarlığın prinsiplərini, funksiyalarını və xarakterik cəhətlərini müəyyənləşdirmək;
- respublikamızda arıçılıq təsərrüfatlarında sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsini həyata keçirmək;
- mövcud arıçılıq təsərrüfatlarının kooperativləşməsi və səhmdar cəmiyyətlərinin yaradılmasının maliyyə - kredit mexanizmləri ilə dəstəklənməsi və s.

Araşdırmalar göstərir ki, sadalanan bu və ya digər istiqamətlərdən əlavə arıçılıq təsərrüfatlarının investisiya resurslarına olan tələbatın ödənilməsi xüsusilə vacib məsələlərdən biridir. Bu tələbatın yetərincə ödənilməməsi son nəticədə aqrar bazar infrastrukturunun formalaşmasında da problemlər yaradır. Bu, özünü ilk növbədə kənd təsərrüfatı məhsullarının tədarük olunması və onların saxlanması üçün obyektlərin az olması və ya çatışmasında göstərir.

Aqrar bölmənin investisiya tələbatı ödənildiyi şəraitdə bu infrastruktur aqrar bazarın səmərəli fəaliyyətinə, xaricdən idxal olunan məhsulların xüsusi arıçılıq məhsullarına nisbətən azaldılmasına, məhsul itkisinin qarşısının alınmasına və sahibkarların gəlirlərinin artmasına imkan vermış olar. Fikrimizcə, bazarda aqrar sektorun spesifik xüsusiyyətləri nəzərə alınmaqla arıçılıq təsərrüfatı məhsullarının istehlakçılara çatdırılması və. s əlaqədar bazar infrastrukturlarının inkişaf etdirilməsinə, dövlət tərəfindən təşkilati, texniki və iqtisadi dəstək verilməsi məqsədəuyğun olardı.

Arıçılıq təsərrüfatı məhsullarinin topdan və pərakəndə satış bazarlarının formalaşdırılmasına, yeni əmtəə birjalarının yaradılması və mövcud olanların işinin yaxşılaşdırılmasına investisiya qoyuluşu-nun həyata keçirilməsi istehsal olunan məhsulların reallaşdırılmasındakı çətinliklərin aradan qaldırılmasına, itkilərin qarşısının alınması-na, istehlakçıların tələbatının yerli məhsullar hesabına daha yaxşı ödənilməsinə və nəticə etibarilə sahibkarların gəlirlərinin artmasına imkan vermış olar.

Ümumiyyətlə, aqrar sektorda sahibkarlığın etibarlı müdafiəsinə dəstək verilməsi, təkcə iqtisadi deyil, eyni zamanda siyasi və sosial amillərlə şərtlənir, dövlətin ərazisində sosial və iqtisadi sabitliyin təmin olunmasına şərait yaradır. Nəticədə, ölkənin aqrar sahəsində bü-

tövlükdə sosial-siyasi stabillik, etibarlı sosial atmosferin mövcudluğunu təmin etmiş olur. Azərbaycanda aqrar sektorun tərkib hissələrindən biri olan arıçılıq təsərrüfatlarına dövlət dəstəyinin artırılması və sahibkarlığın inkişafı üçün lazımi şəraitin yaradılması iqtisadi inkişafın zəruri şərti kimi qarşıda durur.

Sahibkarlığın bütün sahələrində fəaliyyət göstərən çox sayda istehsalçı və xidmətlər vardır ki, onlar özünün inkişaf mərhələsində elmi cəhətdən əsaslandırılmasını və həllini tələb edən bir çox problemlərlə üzləşmişdir. Bu baxımdan marketinq fəaliyyəti - bazarın idarə edilməsi, yeni bazarların tapılması, rəqabət, istehsal və istehlak arasında qarşılıqlı əlaqənin təmini kimi proseslərin tədqiqi aktuallıq kəsb edir.

Marketinqin əsas məqsədi istehsal olunan məhsullarınn satışını təşkil etmək, məhsulların keyfiyyətinin, çeşidinin, istehsal həcminin istehlakçıların tələbatına və zövqlərinə uyğunlaşdırmaq məqsədi ilə bazarın kompleks təhlilinin həyata keçirilməsi, proqnozlaşdırılması və məhsul istehsalının planlaşdırılmasıdır.

İnnovasiya fəaliyyətində marketinq innovasiya məhsulu ilə bağlı tələbin və təklifin təmin olunması üçün idarəetmə prosesidir. Marketinq elmi - texmiki və digər innovasiya fəaliyyətini cəmiyyət üçün həqiqətən zəruri və səmərəli olan innovasiya məhsullarının istehsalına və istehlakına, bu məhsulların istehsalçılarını isə bazarda tələbat olan məhsullar istehsalına yönəldir.

Araşdırmalardan məlum olur ki, ölkəmizə idxal olunan balın keyfiyyəti əksər hallarda çox aşagı, qiyməti də müvafiq olaraq ucuz olur. Bunların qarşısının alınması məqsədilə gömrük keçid məntəqələrində keyfiyyətin yoxlanması üçün müasir laboratoriya avadanlıqların quraşdırılması ölkəmizə gətirilən balın keyfiyyətinin yoxlanmasının təşkili vacib məsələlərdən biridir.

Qeyd etmək lazımdır ki, istehsal həcminin planlaşdırılması, hər şeydən əvvəl, istehsal olunacaq məhsulların bazarı, başqa sözlə onların istehlakçıları müəyyən edildikdən sonra aparıla bilər. İstehlakçısı əvvəlcədən bilinməyən, lakin həcmi planlaşdırılan və istehsal olunan məhsulların realizə olunma ehtimalı az, anbarda toplanıb qalma şansları çox olur.

Aqrar sahənin səmərəli təşkilində satış bazarı sahəsində fəaliyyət

daha çox genişlənməlidir. Bu isə aqromarketinq fəaliyyətinin sürətləndirilməsini tələb edir. ümumiyyətlə, marketinq - iqtisadi fəaliyyət sistemi kimi, bir tərəfdən mövcud ehtiyac və tələbatın mükəmməl öyrənilməsi, digər tərəfdən isə satış bazarına mövcud tələbat və ehtiyaclara aktiv surətdə təsir etməklə, tələbatların formalaşmasını təmin etmək deməkdir.

Aqrar sahədə marketinq işini ləngidən amillər əsasən informasiya - məsləhət xidmətinin aşağı olmasıdır. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarından istifadənin zəif olması aşağı marketinqin idarə edilməsini çətinləşdirir və qarşıya qoyulan məqsədlərə nail olmaq üçün çevikliyi təmin edə bilmir. Son dövrlərdə yeni informasiya texnologiyalarının, əsasən də internetin köməyi sayəsində mövcud çətinliklərin aradan qaldırılmasına nail olunur. İnternet vasitəsilə regional marketinqin tətbiq edilməsi yeni imkanların əldə olunmasına şərait yaradır. Nəticədə dünya informa-siya resurslarına çıxış əldə olunmaqla auditoriyanı genişləndirmək, sürətli və etibarlı əlaqə yaratmaga imkan yaranır ki, bu da bu sahədə marketinq siyasətinin səmərəliliyinin artırılmasını təmin edir.

Aqrar sahə üzrə aqromarketinq sənaye, kommersiya, bank və s. iqtisadi sahələrin marketinqindən tamamilə fərqlənir. Bu, kənd təsərrüfatının obyektiv xüsusiyyətləri ilə, xüsusilə nəticələrin təbii şəraitdən asıllığı, mülkiyyət formalarının müxtəlifliyi, iş və istehsal dövrlərinin üst-üstə düşməməsi, təsərrüfatçılığın təşkilati formalarının müxtəlifliyi, xarici iqtisadi əlaqələr, kənd təsərrüfatı sahələrinin inkişafında dövlətin iştirakı kimi amillərlə əlaqədardır.

Beləliklə, aqrar sahənin inkişaf etdirilməşinin ən mühüm və dünya təcrübəsində geniş istifadə edilən yollarından biri marketinq tədqiqatlarına əsaslanan müasir, modern təsərrüfat subyektlərinin yaradılmasıdır.

Müasir aqromarketinq, yaxud kənd təsərrüfatı marketinqi – mürəkkəb sosial-iqtisadi hadisədir ki, onu bazar şəraitində daim davranış parametrləri olan dörd fəaliyyət amillərinin məcmusu kimi nəzərdən keçirtmək olar:

- sahibkarlıq fəaliyyətinin növlərinin qarşılıqlı fəaliyyətini və əlaqələndirməsini təmin edən biznes qərarları sistemi kimi;
- idarəetmə konsepsiyası kimi;

- rəqabət mühitində kənd təsərrüfatı istehsalçılarının üstünlüklərinin təmin edilməsi vasitəsi kimi;

- kənd təsərrüfatı istehsalçılarının səmərəliliyinin yüksəldilməsi həlli axtarışın metodu kimi.

Digər vacib məsələ aqrar sahədə fəaliyyət göstərən fermerlərin yeni bazarlar tapması, xarici bazarlara çıxış, ümumiyyətlə, fermerin istehsal etdiyi və ya yetişdirdiyi məhsulu satmaq məsələsində çətinliklər hələ də mövcuddur. Əlbəttə, hər bir kiçik təsərrüfatın istər şəhər bazarlarına istərsə də xarici bazarlara çıxmaq imkanları məhduddur, eyni zamanda, əlverişli bazarın olmaması, istehlak bazarları-nın uzaqda yerləşməsi və s. məsələlər hər bir istehsalçıya bazar strukturlarına girməyə imkan vermir.

Bazar proseslərinin intensiv inkişafı ilə istehsal və ya təklif olunan əmtəələrin çeşidi, keyfiyyəti, məmulatın istehlak xassələrinin, qiymətinin müxtəlif istehlakçı qruplarının tələblərinə uyğun gəlməsi arasında birbaşa əlaqə yaranmasına səbəb olur. Odur ki, müasir şəraitdə marketinq xidməti əsasən alıcı tələbinə, tələb və təklifin çeşid - keyfiyyət tarazlığı problemlərinin həllinə yönəldilməlidir.

Marketinqin vəzifəsi tələbatın səviyyəsini, bu tələbatın ortaya çıxmasının vaxtını və xarakterini elə düzgün müəyyən etməkdir ki, o, müəssisənin qarşısında qoyulan məqsədi yüksək effektlə yerinə yetirməyə imkan versin. Marketinq fəaliyyəti müəssisənin bütün fəaliyyətinə hərtərəfli müsbət təsir göstərən amildir. Marketinqin düzgün təşkili və idarə edilməsi məhsul və xidmətlərə tələbin öyrənilməsindən, mənfəətin artırılması üzrə tədbirlərin planlaşdırıl-masından, təşkilindən, auditin və stimullaşdırılmanın həyata keçirilməsi ilə əlaqədar olan idarəetmə fəaliyyəti və sairdən asılıdır.

Marketinq xidmətində arıçılıq məhsulları istehsalı məqsədilə aşağıdakı şərtlərin təmin edilməsi zəruri hesab edilir:

- bazar haqqında, tələbatın strukturu və dinamikası, istehsalçıların zövqü və arzuları haqqında etibarlı, dəqiq məlumat;
- aşkar olunmuş cari (gündəlik) tələbata və perspektiv tələbata son dərəcə uyğun gələn arıçılıq məhsulları çeşidinin istehsalı;
- məhsul satışı üçün daha əlverişli şərait yaradılmasına nail olmaq üçün bazar və bazar tələbatına təsir göstərilməsi;
- məhsul ixrac edən müəssisələrin daxili və xarici rəqabət

mühitinin öyrənilməsi.

Marketinq sisteminin özünə məxsus funksiyaları vardır ki, bunlara aşağıdakıları daxil etmək olar:

- bazarların kompleks şəkildə tədqiqi;
- əmtəə çeşidinin planlaşdırılması;
- qiymət siyasətinin seçilməsi, məzənnə qiymətinin tədqiqi;
- satışın reklamının təşkili və stimullaşdırılması;
- satışın və satışdan sonrakı xidmətlərin təşkili.

Aqrar bazarın inkişafı ilə əlaqədar olaraq, marketinq fəaliyyətinin tətbiq dairəsini müəyyən etmək və onun necə dəyişəcəyinin araşdırılması zəruriliyi meydana çıxır ki, bu zaman əvvəllər marke-tinq fəaliyyətinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə sa-tış bazarı uğrunda, həmçinin rəqabət mübarizəsi şəraitində bir vasitə, müəyyən bazar siyasəti kimi istifadə olunurdu. Xarici iqtisadi əlaqələrin daha geniş vüsət alması, marketinqin inkişafında yeni mərhələnin başlanmaslna səbəb oldu. Dünya təcrübəsi göstərir ki, bazar münasibətlərinə yeni keçmiş ölkələrdə, o cümlədən respublikamızda indiyədək marketinq fəaliyyətini məhz bu cəhəti üstünlük təşkil etmişdir.

**Dördüncü fəsil** "Arıçılıq təsərrüfatlarının iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi" adlanır. Fəsildə arıçılıq təsərrüfatlarının investisiya və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, arıçılıq məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında qiymət mexanizminin təkmilləşdirilməsi, aqrar sahə-nin idarə edilməsində maliyyə təminatının yaxşılaşdırılması istiqamətləri məntiqi ardıçıllıqla, sistemli və əlaqəli tədqiq edilmişdir.

Respublikamızda müasir dövrdə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sektorun tərkib hissələrindən biri olan arıçılıq təsərrüfatlarında da istehsalın inkişaf etdirilməsində investisiyalar çox mühüm rol oynayır. Lakin məlum olduğu kimi, kənd təsərrüfatına qoyulan vəsait ləng dövr edir və buna görə də investisiya qoyuluşundan mənfəət əldə olunması müəyyən müddət tələb edir. Arıçılıq təsərrüfatları isə az vəsait tələb etdiyinə görə və mövsümü xarakterli sahə olduğuna görə burada risk amili digər sahələrə nisbətən azdır.

İnvestisiya prosesinin dövlət tənzimlənməsi dedikdə, investisiya fəallığının və bu əsas üzərində iqtisadi artımın stimullaşdırılması

üçün səlahiyyətli dövlət strukturlarının həyata keçirdikləri qanunverici, icraedici və nəzarətci xarakterli tədbirlər sistemi nəzərdə tutulur.

Araşdırmalar göstərir ki, arıçılıq təsərrüfatlarına yönəldilmiş investisiyalar digər sahələrə nisbətən xeyli azdır. Arıçılıq təsərüfatlarına kapital qoyuluşunun maliyyələşdirilməsi sahəsində nöqsan və çatımazlıqlara bir sıra amillər təsir göstərir.Bu amillərdən biri hazırda ölkəmizin arıçılıq təsərrüfatında xırda istehsalçıların üstünlük təşkil etməsidir. Onlar əsas etibarilə daxili bazar üçün fəaliyyət göstərir və yeni bazarlara çıxmaq imkanları demək olar ki, yoxdur, müasir arıçılıq texnologiyaları ilə təmin olun-mamışdır. İnnovasiyalardan istifadə edə bilmirlər, rəqabətə gücləri yoxdur, kredit almağa ehtiyyat edirlər.

Arıçılıq təsərrüfatlarında investisiya qoyuluşunun maliyyələşdirilməsi həm də investisiya fəalığından asılıdır. Bu fəallığın yüksəldilməsi üçün arıçılıqda investisiya siyasətinin aşağıdakı prinsiplər əsasında aparılması zəruridir:

- dövlət büdcəsindən arıçılıq təsərüfatlarının inkişafı məqsədilə ayrılan vəsaitin artırılması və iqtisadiyyatın real sektorunda investisiyanın səmərəliliyinin artmasını təmin etmək məqsədilə faiz dərəcələrinin aşağı salınması;
- arıçılıq təsərrüfatlarının investisiya cəlbediciliyinin yüksəldilməsi və risklərin azaldılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- arıçılıq təsərrüfatlarının avadanlıqlarla təminatının, qulluq və təşkilatı işlərin aparılması və digər tədbirlərin həyata keçirilməsi.

Məlum olduğu kimi, kənd təsərrüfatının xüsusi bölməsi olan arıçılıq iqtisadiyyatın digər sahələrindən investisiya cəlbediciliyinin aşağı olması ilə fərqlənir.

Ümumilikdə, arıçılıq təsərrüfatlarının investisiya cəlbediciliyinin yüksəldilməsini şərtləndirən amillər aşağıdakılardır:

-elmi-texniki tərəqqinin ən son nəaliyyətlərindən istifadə olunması;

- ən son texnologiyaların tətbiqi sayəsində məhsul istehsalı və onun səmərəliliyinin artırılması və s.

Arıçılıq təsərrüfatlarının modernləşdirilməsini həyata keçirtmək

üçün onun investisiya fəallığını artırmaq lazımdır.

Bazar iqtisadiyyatı şəraitində azgəlirli sahələrin, o cümlədən arıçılıq təsərrüfatlarının investisiya cəlbediciliyini yüksəltmək üçün dövlət investisiya proseslərinin genişləndirilməsinə yönəlmiş tənzimləyici tədbirlərin həyata keçirilməsinə çalışmalıdır. Bu tədbirlərə aşağıdakıları aid etmək olar:

- arıçılıq təsərrüfatlarında kapital qoyuluşunun tövsiyyə xarakterli planlaşdırma əsasında həyata keçirilməsi;
- məqsədli şəkildə dövlət maliyyələşdirilməsi proqramlarının işlənib həyata keçirilməsi;
- arıçılıqda investisiya qoyuluşunun prioritet istiqamətlərinin müəyyən olunması;
- arıçılığın prioritet istiqamətlərinə investisiya qoyuluşunu müəyyənləşdirən zaman, onun ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqələndirlməsi və s.

Fikrimcə, arıçılıq sahəsinin investisiya cəlbediciliyinin yüksəldilməsinin həyata keçirilməsi aşağıdakı istiqamətlərdə aparılmalıdır:

- müxtəlif maliyyələşdirmə mənbələrindən istifadə etməklə arıçılığın maddi-texniki bazasının yaxşılaşdırılması, istehsalçıların maliyyə vəziyyətinin yaxşılaşdırılması;
- dövlət büdcəsindən ayrılan vəsait hesabına arıçılığın investisiya qoyuluşunun maliyyələşdirilməsi və bu sahədə dayanıqlı, dinamik inkişafın təmin olunması üçün əlverişli mühitin yaradılması və s.

İnvestisiyalaşdırma əsasən yeni məhsulların, yeni istehsal sahələrinin yaranmasına şərait yaradr. Bu isə arıçılıq sahəsində təsərrüfatçılıqla məşğul olan iqtisadi vahidlərin maliyyə imkanlarının artırılması hesabına əldə oluna bilər.

Təsərrüfat subyektləri mülkiyyət formasından asılı olmayaraq fəaliyyət dövründə müəyyən təhlükələrlə üzləşirlər. Müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması və onun dayanıqlı inkişafı müasir dövrün tələblərinə cavab verən texnika, texnologiya və kadrların olması ilə şərtlənir.

Respublikamızda arıçılıq təsərrüfatlarının əksəriyyətində istifadə olunan texniki vasitələr fiziki və mənəvi cəhətdən köhnəlmiş olduğuna görə onların müasirləşdirilməsi, yeni texnologiyaların tətbiqi böyük maliyyə vəsaiti tələb edir ki, bu da istehsal-təsərrüfat fəaliy-

yətində böyük riskdir.

Ümumiyyətlə, arıçılığın inkişafı ilə əlaqədar Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2017-ci ilin statistik məlumatlarına əsasən 390-dək sahibkara 4.7 milyon manat manat dövlətin güzəştli kreditləri verilmişdir. Bu kreditlər hesabına 690-dək yeni iş yerinin yaradılması imkanı yaranmışdır.

Məlum olduğu kimi, arıçılıq təsərrüfatlarının maliyyə təminatında bu gün əsasən şəxsi vəsaitlərin üstünlük təşkil etməsinə baxmayaraq, yaxşı olardı ki, bu sahəyə dövlət büdcəsi vəsaitləri, bank və bank olmayan təşkilatların kreditləri, yerli və xarici investisiyalar, beynəlxalq təşkilatların vəsaitələri də cəlb olunsun.

Dövlətin aqrar sahədə investisiya siyasəti arıçılıq məhsulları istehsalının intensiv əsasda artırılmasına yönəldilməlidir. Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsi müsbət nəticələrin əldə olunmasına şərait yarada bilər:

- arıçılıq təsərrüfatlarında büdcədən ayrılan vəsait hesabına maliyyələşdirilən investisiyalara geniş yer verilməsi;
- mövcud arıxanaların bərpası, yenilərinin ərazilərdə təşkil olunması, arıçılığın material və avadnlıqlarla təminatının yaxşılaşdırılması;
- arıçılıq məhsullarının istehsalı, satışı və emalı sahələrinə daha çox investisiya qoyuluşunun stimullaşdırılması üçün tədbirlər görülməsi, bu sahədə dövlət dəstəyinin daha da gücləndirilməsi;
- yeni, arıçılığın inkişafı üçün əlverişli ərazilərdə arıxanaların təşkilinin stimullaşdırılmasına yönəldilən dövlətin maliyyə dəstəyi mexanizminin hazırlanması;
- arıçılıqda genefondun qorunması və arıların işçi şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan işlərin genişləndirilməsi.

Respublikamızda mövcud olan iqtisadi və maliyyə şəraiti, investisiya vasitələrindən istifadə olunması imkanlarını qiymətlən-dirərək, hesab edirik ki, arıçılıq təsərrüfatlarında investisiya fəaliy-yətində dövlətin tənzimləyici siyasəti aşağıdakı maliyyə mexanizm-ləri əsasında inkişaf etdirilməlidir:

- bank kreditləri;
- bank faktorinqi;
- kənd kredit kooperasiyası;

- ixtisaslaşdırılmış xüsusi kənd təsərrüfatı banklarının yaradılması;
- avadanlıq və texnikanın lizinqə verilməsi;
- büdcədən maliyyələşmə;
- əhalinin istehlak qabiliyyətli tələbinin tənzimlənməsi yolu ilə arıçılıq məhsullarının qiymətlərinin tənzimlənməsi və s.

Bütün sahələrdə olduğu kimi, arıçılıq təsərrüfatlarında da istehsal olunan məhsulun maya dəyərinin aşağı salınması təsərrüfatın gəlirliyinin (rentabelliyinin) artırılmasının əsasını təşkil edir. Arıçılıq məhsullarının maya dəyərinin həcmi bir sıra amillərdən asılıdır. Bunlardan ən əsası arı ailəsinin məhsuldarlığıdır.

Sahənin rentabelliyini bal-əmtəəlik istiqamətində nəzərdən keçirək. Statistik rəqəmlərə əsasən bu istiqamətdə fəaliyyət göstərən arıçılıq təsərrüfatlarında rentabelliyin təmin olunması üçün hər bir arı ailəsindən mövsüm ərzində 25 kq-dan az olmayaraq bal məhsulu alınmalıdır (buraya arılar üçün yem ehtiyatı və satış üçün nəzərdə tutulan bal məhsulu daxildir).

Sadalanan bu amillərdən başqa arıçılıq təsərrüfatlarında məhsulların maya dəyərinə təsir edən amillərdən biri olan təbii-iqlim şəraitinin, özünəməxsus rolu vardır. Belə ki, havaların yagmurlu, küləkli keçməsi arıların məhsuldar işinə mənfi təsir göstərir. Bu isə kənd təsərrüfatının digər sahələrində olduğu kimi, arıçılıq təsərrüfatlarında da məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Məhsulun maya dəyəri yüksəklir, bu isə qiymətlərin bahalaşmasına gətirib çıxarır.

Hazırda arıcılıq məhsulları qiymətlərinin formalaşmasına aşağıdakı amillərin təsir göstərdiyi qənaətinə gəlmək olar:
- arıcılıq məhsullarına olan tələb və təklifin səviyyəsi;
- məhsulların daşınması şərtləri və nəqliyyat; xərclərinin həcmi;
- məhsul vahidinin maya dəyəri;
- bazarın inhisarlaşdırılması səviyyəsi;
- bazar strukturlarının mövcud vəziyyəti;
- istehsal olunan məhsulların keyfiyyəti və qidalılığı;
- respublikada mövcud rəqabət mühiti:
- xarici bazarlarda qiymətlərin mövcud səviyyəsi.

Tələbə qiymət və qeyri-qiymət amilləri təsir göstərir. Qeyri-qiy-

mət amilləri dedikdə, bazarda bir-birinə əvəz edən və ya tamamlayan məhsulların mövcudluğu, istehlakçıların sayı, zövqlərin müxtə-lifliyi, gəlirləri və s. başa düşülür. Lakin sübut olunmuşdur ki, tələbə təsir edən amillər içərisində əmətəələrin qiymətləri xüsusi yer tutur. Qiymətlər nə qədər yüksək olarsa, həmin məhsulu istehlak edənlərin sayı bir o qədər az, əksinə qiymətlər nə qədər aşağı olarsa, həmin məhsulların alıcıları da bir o qədər çox olar.

Tələblə qiymət arasındakı qarşılıqlı əlaqəni şərti misalla izah etsək, görərik ki, hər hansı bir sahənin tələbat məhsulları ay ərzində satılmış balın bir tonunun qiyməti ilə ona tələb arasındakı nisbət aşağıdakı kimi olacaqdır (cədvəl 3).

**Cədvəl 3. Balın qiyməti ilə ona tələbat arasında əlaqə**

| Balın bir tonunun qiyməti (P man) | Bala olan bazar tələbinin həcmi (Q min ton) |
|---|---|
| 1500 | 1 |
| 1400 | 3 |
| 1300 | 5 |
| 1200 | 6 |
| 1100 | 10 |




**Şəkil 1. Qiymətlə tələb arasındakı asıllıq qrafiki.**

İqtisadi ədəbiyyatlarda “D” əyrisinə tələb əyrisi deyilir. Bu əyridən göründüyü kimi, qiymətin aşağı düşməsi tələbin artmasına, əksinə qiymətin bahalaşması tələbin azalmasına səbəb olur. Buradan da

belə bir nəticə çıxarmaq olar ki, tələbin artıb-azalması arıcılıq təsərrüfatlarında struktur dəyişikliklərinə gətirib çıxarır, tələbatın ödənilməsi isə istehsalın artmasını stimullaşdıra və qiymətlərin bahalaşmasının qarşısını ala bilər.

Təklif adətən istehsal olunan məhsula qoyulan qiymətin sərfəli olması baxımından nəzərdən keçirilir. Hər bir sahibkarları istehsala başlamazdan əvvəl, mənfəət əldə etmək üçün qoyduğu xərcin ödənilməsi məsələsi düşündürür. Sahibkar məqsədinə nail olmaq üçün bazara çıxardığı əmtəələrə ən yüksək qiymət qoymağa cəhd göstərir. Deməli, qiymətlərin yüksək olması, sahibkarları bazara daha çox məhsul çıxarmağa sövq edir, yəni təklifin artmasına səbəb olur. Göründüyü kimi, istehsalçının təklif etdiyi məhsulun həcmi qiymətlərin səviyyəsindən asılı olur. Beləliklə, digər şərtlər sabit qalmaqla qiymətlər nə qədər yüksək olarsa, məhsul üzrə təklif də bir o qədər yüksək, əksinə olduqda isə bir o qədər aşağı olacaqdır.

Yuxarıdakı qaydada, təklif əyrisini də qrafiki olaraq təsvir etmək olar. Fərz edək ki, arıcılıq təsərrüfatı bazarda öz balını satmaq istəyir. Təklifin səviyyəsinə təsir göstərən bütün digər amillər nəzərə alınmaqla müxtəlif qiymətlərlə bal üzrə təklifin həcmini aşkara çıxaraq. Bunun üçün aşağıdakı cədvəl 6-da verilmiş şərti məlumatlardan istifadə edək.

**Cədvəl 4. Balın minimum qiymətləri ilə təklif arasında əlaqə**

| Balın mümkün olan qiyməti (P-ton/min) | İstehsalçıların təklif etdikləri balın miqdarı (Q -bir ayda, ton) |
|---|---|
| 1500 | 6 |
| 1400 | 5 |
| 1300 | 3 |
| 1200 | 2 |
| 1100 | 1 |

Cədvəldəki qrafiklə təsvir etsək, balın qiyməti ilə təklif olunan balın miqdar arasındakı asılılığı aşkara çıxarmış olarıq X oxu üzərində balın miqdarını (Q), Y oxu üzərində balın qiymətini əks etdirsək (şəkil 2.)




**Şəkil 2. Balın bazar qiymətləri ilə təklif olunan həcmi arasında nisbət, təklif əyrisi.**

Çox vaxt təklifin dəyişməsinə bir sıra qeyri-qiymət amilləri təsir göstərir. Qeyri-qiymət amilləri dedikdə, yeni texnika və texnologiyalardan istifadə, vergi siyasətinin və istehsal amilləri qiymətlərinin dəyişməsi sayəsində məhsulun maya dəyərinin dəyişməsi, təbii istehsal şəraiti, sahibkarların qarşıya qoyduqları məqsəd və s. başa düşülür.

Sadalanan amillər içərisində istehsal xərcləri əsas olmaqla, arıçılıqda elmi-texnika nəaliyyətlərdən və texnologiyalardan istifadə olunduqda, hava şəraiti əlverişli olduqda aşağı düşür. Buradan belə nəticə əldə etmək olar ki, istehsal olunan məhsulun nə dərəcədə yararlı və əhəmiyyətə malik olması və insanların tələbatını ödəmək xassəsi, öz əksini qiymətlərdə tapır.

Arıçılıq təsərrüfatı məhsulları istehsalçılarının bu sahədən uzaqlaşması daxili bazarda yerli məhsulların azalmasına, qiymətlərin bahalaşmasına səbəb olmaqla yanaşı, bir tərəfdən əhalinin baha qiymətə arıçılıq məhsullarının satın alınmasına, digər tərəfədən isə ölkəyə ucuz qiymətə idxal məhsullarının gətirilməsinə səbəb olur.

Daxili ərzaq bazarında bu və ya digər sahənin məhsullarının hansısa iş adamı tərəfindən xarici ölkələrdən gətirilməsi inhisarçılıq üçün şərait yaradır. Nəticədə ölkədə ərzaq bazarının qorunmasında çətinliklər ortaya çıxır. Bu halda dövlət inhisarçılığa qarşı mübarizə aparmaqla bazar münasibətlərinin pozulması meylinin qarşısını almaq üçün antiinhisar tədbirləri həyata keçirir, istehsalçılara təminatlı yardım göstərir.

Arıçılıq təsərrüfatı məhsullarının çoxsaylı istehsalçıları mahiyyətcə azad rəqabət bazarını səciyyələndirir. Buna baxmayaraq, arıçılıq məhsulları istehsalçıları sənayedə istehsal olunan arıxanaların təşkili üçün avadanlıqlar, zərərvericilərə qarşı preparatlar, qablaşdırıcı aparatlar, taralar və s. bu kimi məhsulları satın alarkən bir qayda olaraq bir sıra çətinliklərlə qarşılaşmalı olurlar.

Statistik məlumatlara görə, ölkəmizə hər il arıçılıq təsərrüfatı məhsulları və onlardan hazırlanan məhsulların idxal olduğunu nəzərə aldıqda, qeyd olunan məsələnin nə qədər aktual olması bizə daha aydın olur. Bu gün ölkəmizə həmin məhsulların istehsalını təşkil etməklə, xaricə valyuta axının qarşısını almaq iqtidarındadır.

Bunun həyata keçirilməsi üçün məhsul istehsalına sərf olunan xərclərin bir hissəsinin dövlət tərəfindən ayrılan subsidiyalar hesabına ödənilməsi yolu ilə azaldılmasından ibarətdir. Yüksək inkişaf etmiş (iqtisadi cəhətdən) ölkələrdə bu qaydadan geniş istifadə olunur. ABŞ, Kanada, Finlandiyad, Norvecdə, Yaponiya və.digər ölkələrdə kənd təsərrüfatı məhsullarının dəyərinin bir hissəsi dövlət tərəfindən verilən subsidiya hesabına maliyyələşdirilir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsulları qiymətlərinin tənzimlənməsinə ayrılmış vəsaitlərin aqrar sahənin inkişafına ayrılmış vəsaitlərin tərkibində xüsusi çəkisi ABŞ-da 28%, Kanadada 40%, Avstraliyada 35%, Yeni Zelandiyada 71%, Yaponiyada isə 70% təşkil edir. ümumiyyətlə götürdükdə, liberal iqtisadi siyasət yeridən ABŞ və Yaponiyada kənd təsərrüfatı məhsulları qiymətləri-nin tənzimlənməsinə istiqamətləndirilmiş tədbirlər həyata keçirilir ki, bu da ilk növbədə fermerlərin iqtisadi cəhətdən müdafiə olunma-sında mühüm rol oynamaqla yanaşı, həm də istehlakçıların prob-lemlərinin həll edilməsində də önəmli təsirə malikdir.

Digər vəzifələrlə yanaşı, ölkənin ərzaq təhlükəsizliyini, əhalinin arıçılıq məhsullarına olan tələbatının daxili imkanlar hesabına təmin edilməsi üçün arıçılıq təsərrüfatı məhsulları qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi həyata keçirilməlidir. Bu məqsədlə ilk növbədə arıçılıqda qiymət sistemi düzgün müəyyənləşdirməli, elmi cəhətdən əsaslandırılmalıdır. Yalnız, belə olduqda arıçılıq təsərrüfatları məhsulları istehsalının stimullaşdırılmasına və sonda daxili ərzaq bazarının bala olan tələbatının yerli istehsalla təmin olunmasına və qo-

runmasına nail olunması mümkün ola bilər.

Belə olan halda qiymətlər hökumət tərəfindən müəyyən edilir. Məqsədli qiymətlər sənaye və arıçılıq təsərrüfatı sahələrində istehsal olunan məhsulların qiymətlərində paritet nisbətin təmin olunmasını, vergi və digər ödəmələrlə əlaqədar olan xərclərin, götürülmüş kreditlər üzrə faiz məbləğinin ödənilməsini, arıçılıq təsərrüfatları işçilərinin gəlirlərinin iqtisadiyyatın digər sahələri üzrə mövcud olan orta gəlir səviyyəsinə çatdırılmasını və arıçılıqda təkrar istehsalın həyata keçirilməsinin təmin olunmasına, mənfəət əldə olunmasına şərait yaradılmasına xidmət etməlidir.

Aparıcı mütəxəssislərinin fikrincə, arıçılıq təsərrüfatlarında məqsədli qiymətlər müəyyən olunarkən aşağıdakı hallar nəzərə alınmalıdır:

- əsas əmtəəlik məhsulların istehsal olunduğu ərazilərdə orta şəraitdə yerləşən məhsul istehsalçılarının sərf etdikləri xərcləri ödəməlidir;
- Məhsul çatışmazlığı olduqda pis şəraitdə fəaliyyət göstərən məhsul istehsalçılarına dövlət dəstəyinin digər kanalları ilə əlavə yardım göstərilməlidir;
- elmi-texniki tərəqqini, qeyri-məhsuldar xərclərin azaldılmasını, məhsulların keyfiyyətinin yüksəldilməsini stimullaşdırırmalıdır;
- məhsulun istehsal olunduğu konkret şərait, başqa sözlə, zonaların fərqləndirilməsi;
- arıçılıq təsərrüfatlarının xüsusiyyətləri - istehsalın mövsümi xarakter daşıması, istehsal vaxtının uzun müddət davam etməsi və buna uyğun olaraq dövriyyə vəsaitlərinin ləng dövr etməsi.

Bu prinsiplər nəzərə alınmaqla məqsədli qiymətlər aşağıdakı kimi müəyyən edilə bilər:

$$Q_m = (МД_n + M_{ə\,h} + Q_{d\,m}) \text{ x } Ə_{i\,d} + M_y$$

burada: $Q_m$ - məqsədli qiymət;

$MD_n$ - məhsul vahidinin normativ maya dəyəri, man;

$M_{əh}$ - maya dəyərinə daxil edilmiş əmək haqqına düşən mənfəət (ölkə iqtisadiyyatı üzrə hesablanan orta nisbət göstəricisi);

$Q_{d\,m}$ - əsas vəsaitlərin dövriyyədə olduğu müddət üçün ödəmələr;

$Ə_{i\,d}$ - istehlak dəyərinin səmərəliliyi əmsalı;

$M_y$ - vergilərin ödənilməsi üçün hesablanan mənfəət məbləği

deməkdir.

Əsas vəsaitlərin dövriyyə olduğu müddət üçün ödəmələr ($Q_{d\,m}$) aşağıdakı düsturla müəyyən olunur:

$$Q_{d\,m} = (Д_f + Д_o) \times (Ə_{f\,d} + N_{m\,n})$$

burada: $Д_o$ - iqtisadiyyat üzrə bütövlükdə əsas vəsaitlərin optimal dövretməsi, il;

$Д_f$ - həmin məhsulun istehsalında istifadə olunan əsas vəsaitlərin orta faktiki dövriyyəsi, il;

$N_{m\,n}$ - il ərzində cəmiyyətdə fondlara olan nisbətdə optimal mənfəət norması;

$Ə_{f\,d}$ - əsas vəsaitlərin dəyəri deməkdir.

Maya dəyərinə daxil edilmiş əmək haqqına düşən mənfəət ($M_{ə\,h}$) aşağıdakı kimi təyin edilir:

$$M_{ə\,h} = M_i \times Ə_{h\,n\,f} / Ə_{h\,i}$$

burada: $M_i$ - keçən il iqtisadiyyatda yaradılmış mənfəət məbləği;

$Ə_{h\,i}$ - keçən il iqtisadiyyatda əmək ödənişləri;

$Ə_{h\,n\,f}$ - məhsul vahidinin maya dəyərində normativ üzrə əmək ödənişləri fondu deməkdir.

Bu hesablamalardan başqa, məqsədli qiymətin müxtəlif empirik formullarla müəyyən etmək olar.

Arıçılıq təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasını təmin etmək üçün, onların istehsal etdikləri məhsullar üçün qiymətlərin aşağı və yuxarı həddinin müəyyən edilməsi də həlledici amillərdən biridir. Onun köməyi ilə arıçılıq təsərrüfatları məhsulları bazarlarında qiymət mexanizminin tənzimlənməsini həyata keçirmək, məhsullara ən aşağı və ən yüksək qiymət müəyyən etmək olar. Bu, satıcı öz əmtəəsini satdığı halda razı olduğu qiymətin aşağı həddi, yaxud əmtəə aldığı halda qiymətin mümkün olan ən yüksək həddinin müəyyən edilməsi yolu ilə həyata keçirilir.

Bu zaman satış qiymətinin həddi aşağıdakı düsturla müəyyən olunur:

$$Q_{n\,1} = (MD + M_m + T_x)$$

burada: $Q_{n\,1}$ - satış qiymətinin həddi;

MD- məhsulun maya dəyəri;

$M_m$ - bazarın ən pis seqmqtində mənfəətin minimum məbləği;

$T_x$ - ticarət xərcləri deməkdir;

Tədarük (satınalma) qiymətinin həddi isə aşağıdakı düsturla müəyyən olunur:

$$Q_{n2} = (Q_m + T_x)$$

burada: $Q_m$ - arıçılıq təsərrüfatı məhsulları bazarlarında ən aşağı qiymət deməkdir.

Arıçılıq təsərrüfatı məhsulları istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması üçün istifadə olunan qiymətlənmə metodlarından biri də təminatlı qiymətləndirmədir. Bu qiymətlər arıçılıq təsərrüfatı məhsulları istehsalçılarını bazar konyukturunda baş verən mənfi dəyişikliklərdən, sahibkarların bu sahədən uzaqlaş-masından, müflis olmaqdan qoruyur və kənd əhalisinin şəhərlərə axınının qarşısını alınmasına müsbət təsir göstərir.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirsək arıçılıq təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında qiymət mexanizminin rolunun mahiyyəti aşağıdakılardan ibarət olması nəticəsində gəlmiş olarıq:

- sənaye və kənd təsərrüfatı məhsullarının qiymətləri arasındakı qeyri-bərabərliyin aradan qaldırılması;
- arıçılıq məhsulları istehsalçılarının iqtisadiyyatın digər sahələrində olan təsərrüfat subyektləri ilə bərabər gəlir əldə etməsinin təmin olunması;
- əhalinin tədiyyə qabiliyyətli tələbinin stimullaşdırılması;
- arıçılıq məhsulları istehsalçılarına satılan və icarəyə verilən texnikanın qiymət və tariflərinin vaxtaşırı nəzərdən keçirilməsi və tənzimlənməsi;
- kənd sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi üçün qiymətlərin vaxtaşırı nəzərdən keçirilməsi və s. dövlət tərəfindən konkret tədbirlər görülməsi məqsədə uyğundur.

Beləliklə, nəzərdən keçirilənləri ümumiləşdirsək arıçılıq təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında qiymət mexanizminin rolunun mahiyyəti aşağıdakılardan ibarət olması nəticəsində gəlmiş olarıq:

- sənaye və kənd təsərrüfatı məhsullarının qiymətləri arasındakı qeyri-bərabərliyin aradan qaldırılması;
- arıçılıq məhsulları istehsalçılarının iqtisadiyyatın digər sahələrində olan təsərrüfat subyektləri ilə bərabər gəlir əldə etməsinin

təmin olunması;

- əhalinin tədiyyə qabiliyyətli tələbinin stimullaşdırılması;
- arıçılıq məhsulları istehsalçılarına satılan və icarəyə verilən texnikanın qiymət və tariflərinin vaxtaşırı nəzərdən keçirilməsi və tənzimlənməsi;
- kənd sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi üçün qiymətlərin vaxtaşırı nəzərdən keçirilməsi və.s dövlət tərəfindən konkret tədbirlər görülməsi məqsədəuyğundur.

Müasir bazar münasibətləri şəraitində sadalanan bu və ya digər problemlərin həlli yollarından biri aqrar sahədə sığorta işinin həyata keçirilməsidir. Aqrar sahədə sığortanın aparılması kənd təsərrüfatı istehsalının yüksəldilməsinə, onun sabitliyinin təmin olunmasına və kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmiş müəyyən iqtisadi münasibətlər sisteminin yaranmasına xidmət edir.

Kənd təsərrüfatı sahəsində istehsalın sığortalanması və təşkili zamanı ayrı-ayrı regionların təbii iqlim xüsusiyyətlərinin nəzərə alınması vacib şərtdir. Aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin nəticəsi, təbii - iqlim şəraitindən, təbiətdə və canlı aləmdə baş verəcək müxtəlif dəyişikliklərdən və xəstəliklərdən asılı olduğuna görə, sığorta sisteminin fəaliyyətinin böyük əhəmiyyəti vardır. Odur ki, kənd təsərrüfatında istənilən fəaliyyət növünün sığortalanması təbii və digər hadisələrdən ən effektiv müdafiə metodudur.

Respublikamızda son dövrlərdə aqrar sahədə lizinq əlavə maliyyələşmə mexanizmi kimi xüsusi əhəmiyyət kəsb edir. Lizinq - bank kreditləri, mülkiyyət icarəsi və sərmayə elementlərini özündə birləşdirən bir mürəkkəb münasibətlər sistemidir. Lizinq müqaviləsinin subyektləri kimi adətən icarəyə verən və icarəyə götürən olur. Lakin son zamanlarda lizinqin bir sərmayə aləti kimi daha da inkişafı ilə əlaqədar lizinq münasibətləri indiki dövrdə genişlənərək özündə bankları və sığorta şirkətlərini lizinq əməliyyatlarının elementləri sırasına daxil etmişdir. Bu isə lizinqi daha çevik və üstün etmişdir. Lizinqin köməyi ilə istehsalı müasirləşdirmək və kiçik biznesi inkişaf etdirmək mümkündür.

Digər maliyyələşmələrdən fərqli olaraq lizlnq, bizneslərin maliyyələşdirməyin ucuz metodlarını təklif edir və birbaşa bank kredit məhsulları ilə rəqabətə girir. İnkişafda olan iqtisadiyyatlarda lizinq,

bizneslərə girovdan gələn borcu artırmadan həm lizinq maliyyələşməsinə, həm də əlavə bank maliyyələşməsinə çıxmaq üçün imkan yaradır. Lizinq, həm də öz növbəsində, iqtisadiyyatda ümumi kapital qoyuluşunun artmasına şərait yaradır.

Bütün bunlardan başqa, lizinq maliyyələşmənin digər forma-larını əvəz edə və artıra bilən alternativ maliyyələşmə forması kimi xidmət etməklə, avadanlığın satışının artmasına şərait yaradar. Həmçinin, yerli və xarici təhcizatçılara müştəri bazarlarını artırmaq üçün yeni mexanizm və yeni maliyyələşmə üsulları təklif edir.

Aqrar sahənin maliyyə təminatına daha çox ehtiyacı olan, tədqiqat obyekti kimi seçdiyim arıçılıq təsərrüfatlarının tədqiqat işimə yuxarıda qeyd etdyim problemlərin həlli və bu sahənin inkişafını sürətləndirmək məqsədilə ölkə Prezidenti İlham Əliyev xüsusi sərəncam imzalanmış və 2018-ci ildən başlayaraq növbəti 5 ildə arıçılara hər arı ailəsinə görə dövlət tərəfindən 10 man subsidiya verilməsinə başlanılmışdır.

Zənnimcə, ölkə Prezidentinin bu sərəncamı arıçılığa marağın artmasına və keyfiyyətli Azərbaycan balının böyük ixrac məhsuluna çevrilməsinə şərait yaradacaq. Hazırda respublikamızda iri layihələrdən biri olan ABAD konteynerlərində bal istehsalı təmin edilir. Əlbəttə ki, onun paketlənməsi, keyfiyyəti ən yüksək səviyyədə olmalıdır.

## Nəticələr

1.Respublikamızda aqrar sahədə iqtisadi islahatların əsas istiqamətləri iqtisadi idarəetmə və idarəçilik sahəsində aparılan islahatlardır. Aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi bu sahənin davamlı inkişafına başlıca zəmin yaradar.

2.Arıçılıq təsərrüfatlarının formalaşması xüsusiyyətlərinin nəzərdən keçirilməsi, onların dünyada olan mütərəqqi formalarının və optimal strukturlarının, ölkəmizdə geniş tətbiq edilməsi üçün kompleks tədbirlər proqramının hazırlanması zəruridir.

3.Arıçılıq təsərrüfatlarının regionlar üzrə yerləşdirilməsi bölgələrin təbii-iqlim şəraiti və bitki örtüyü nəzərə alınmaqla həyata keçirilməsi məqsədəuyğundur.

4.Kənd təsərrüfatı məhsullarının satışını həyata keçirtmək üçün ölkənin paytaxtı Bakı şəhərində həyata keçirilən satış yarmarkalarında arıçılıq məhsullarının satışının təşkili xüsusi əhəmiyyətə malikdir. Zənnimcə satış yarmarkalarının mütəmadi olaraq bölgələrdə də keçirilməsi təşkil olunmalıdır.

5.Arıçılıqda infrastrukturn formalaşdırılması, bu sahədə müxtəlif təyinatlı, ölçülü və mülkiyyət formalı arıçılıq təsərrüfatlarının yaradılması məqsədəuyğun sayıla bilər.

6.Aparılan araşdırmaların əsasında belə nəticəyə gəlmək olar ki, ölkə ərazisində fəaliyyət göstərən kiçik həcmli arıxanaların öz vəsaitlərini bir yerə toplamaqla iri ixtisaslaşdırılmış səhmdar cəmiyyəti formasında təşkil daha məqsədəuygun olardı.

7.Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun nəzdində fəaliyyət göstərən "Arıçılıq mərkəzi" bu gün elmlə istehsalatın birgə fəaliyyətinin bariz nümunəsi olmaqla, respublikamızda arıçılıgın inkişafına öz töhfəsini verməkdədir. Bu tip arıçılıq təssərrüfatlarının sayının artırılması arıçılığın inkişafına öz müsbət təsirini göstərməklə, bu sahənin elmi əsaslarla inkişafını təmin etmiş olardı.

8.Bitkiçiliklə məşgul olan təsərrüfatlarda arıçılıq təsərrüfatlarının yaradılması hər iki sahənin inkişafına şərait yaratmış olardı.

9.Arıçılıq təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılması və sağlamlaşdırılmasının təmin edilməsi üçün bilavasitə dövlətin maliyyə dəstəyi və kredit vasitələri mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi də çox böyük əhəmiyyətə malikdir.

10.Arıçılıq təsərrüfatlarında qiymət mexanizminin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Odur ki, digər vəzifələrlə yanaşı, əhalinin arıçılıq məhsullarına olan tələbatının daxili imkanlar hesabına təmin edilməsi üçün arıçılıq təsərrüfatı məhsulları qiymətlərinin dövlət tərəfindən tənzinlənməsi həyata keçirilməlidir.

11.Arıçılıqla məşgul olan kənd sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi üçün müasir avadanlıq və texnologiyarla təmin edilmiş arıçılıq təsərrüfatlarının yaradılması istiqamətində dövlət orqanları tərəfindən konkret tədbirlər görülməlidir.

12.Respublikamızda bu günə kimi mövcud olan arıçılıq təsər-

rüfatlarının “Elektron” qeydiyyatının lazımı səviyyədə aparılmamışdır. Bu da son dövrlərdə dövlət dəstəyi olaraq subsidiyaların verilməsində çətinlik törədir. Odur ki, qısa bir zamanda “Elektron” qeydiyyatın aparılması vacibdir.

## Tətbiqi barədə tövsiyələr

Tədqiqat zamanı əldə edilən nəzəri biliklər arıçılıq üzrə elmi-pedaqoji kadr hazırlığının tədris prosesində və elmi-tədqiqat işlərində istifadə edilə bilər. Tədqiqatın nəticələrinin praktiki əhəmiyyəti Azərbaycan Arıçılar İttifaqında, Azərbaycan Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun “Arıçılıq” mərkəzinin Elmi-texniki Şurasında müzakirə edilərək bəyənilmiş və tətbiqi məqsədəuyğun görülmüşdür. (Protokol №5, 22 iyun 2016-cı il). Bundan başqa dissertasiya işinə Rusiyanın Stavropol Vilayətinin Şimali Qafqaz Federal Universitetindən müsbət rəy verilmişdir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı dərc olunmuş məqalələrdə öz əksini tapmışdır:**

1. Hümbətov, Y.Ə. Azərbaycanda müasir şəraitdə bal istehsalının artırılması yolları // – Bakı: Azərbaycan Aqrar Elmi, – 2013. № 3, – s.72-73.

2. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının təşkilatı-idarəetmə funksiyaları // – Bakı: AMEA İqtisadiyyat xəbərləri, – 2013. № 4/., – s.133-139.

3. Hümbətov, Y.Ə. Azərbaycan Respublikası ərazisində olan arıçılar haqqında AzETHİ “Arıçılıq mərkəzi” 2014, Gəncə məlumat kitabçası. 77 s.

4. Humbatov, U.A. Contermporary features of formation and development of the beekeeping farms in Azerbaijan//- Materialy X miedzynarodowej aukowi-praktyczney konferencji 07-15 marca 2014 roku - p. 8-11.

5. Hümbətov, Y.Ə. Arıçılıq sahəsində sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi” // – Bakı:AMEA İqtisadiyyat xəbərləri, – 2014. № 3, – s.123-126.

6. Hümbətov, Y.Ə. Azərbaycanda regionlar üzrə arıçılıq təsərrüfatlarının yerləşdirilməsi üçün ilkin şərtlər // Azərbaycan Dövlət Aqrar Universitetində “Müasir aqrar elm: Qloballaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspektivləri”nə həsr olunmuş Beynəlxalq elmi-praktik konfransın materialları, – Gəncə: ADAU, – 2014. II cild. – s.391-394.

7. Humbatov, U.A. İmproving the delivery and marketinq of

beekeeping products to consumers // – Modern research and development Fhilodelfia, USA № 09(29) 2015, – p.49-51.

8. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarında qiymət mexanizminin təkmilləşdirilməsi // – Bakı: AMEA İqtisadiyyat xəbərləri, – 2015. № 2, – s.90-94

9. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının təşkili və idarəetmə mexanizminin təkmilləşdirilməsi Monoqrafiya AzETİİ, Gəncə, 2015 256 s.

10. Hümbətov, Y.Ə. Müasir şəraitdə arıçılıq məhsullarının qiymətlərinin formalaşmasına təsir edən amillər // – Bakı: Azərbaycan Aqrar Elmi, – 2015. № 1, – s.175-177.

11. Humbatov, U.A. About regulation of beekeeping farm prices by the state // Materials of the International Scientific Practical Conferense Marseille, Fransa 07(27) 2015, – p.107-109

12. Hümbətov, Y.Ə. Azərbaycanda arıçılıq təsərrüfatlarının müasir vəziyyəti və onun inkişaf istiqamətləri // – Gəncə: "Azərbaycanda arıçılıq Arıçılığın inkişafına dair Azərbaycan-Türkiyə Elmi-Tədqiqat əməkdaşlığı" toplantısı – II 9 iyun 2015, – s.24-28.

13. Hümbətov, Y.Ə. Respublikamızda arıçılıq təsərrüfatlarının inkişaf perspektivləri // – Bakı: Azərbaycan Aqrar Elmi, – 2015. № 2, – s.63-66.

14. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının yerləşdirilməsi və sənaye əsasında təşkili // – Gəncə: Beynəlxalq Elmi-Praktik Konfrans ATU, 2015. – s.376-377.

15. Humbatov, U.A Curent State and Development of Beekeeping in Azerbaijan // Components Scientific and Teehnological Progress 2015. №3(25), – p.25-27.

16. Гумбатов, Ю.А. Основные направления организации пчеловодства на современном этапе // – Москва: Экономика и предпринимательство, 2015. №12, – с.767-770

17. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının davamlı inkişafının ərzaq təhlükəsizliyinin təmin olunmasına təsiri // – Bakı: AMEA İqtisadiyyat xəbərləri, – 2016. № 4, – s.65-70.

18. Hümbətov, Y.Ə. Azərbaycanda aqrar sahədə müəssisələrin yaradılması qanuna uyğunluqları // – Gəncə: Gənc alimlərin I Beynəlxalq elmi konfransı 2016. – s.84-85.

19. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının iqtisadi səmərəliliyinə ekoloji amillərin təsiri // – Gəncə: Benəlxalq Elmi-Praktik Konfrans" ATU, 2016. – s.142-145.

20. Hümbətov, Y.Ə. Aqrar sahədə infrastrukturların yaradılması və inkişaf istiqamətləri // – Bakı: AMEA İqtisadiyyat xəbərləri, – 2016. № 6, – s.41-45.

21. Hümbətov, Y.Ə. Aqrar sahənin davamlı inkişafının təmin olunmasının mahiyyəti və məzmun elementləri // – Bakı: AzKTN-i Kənd təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri 2016. №3, – s.17-20

22. Гумбатов, Ю.А. Современные состояние и развитие пчеловодство в Азербайджане // – Москва: Наука и бизнес. Пути развития. 2016. № 1(55), – с.41-44.

23. Hümbətov, Y.Ə. Arıçılıq sahəsində fəaliyyət göstərən təsərrüfatların inkişafının dövlət tənzimlənməsi // – Bakı: AzKTN-i Kənd təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri 2016. №4, – s.46-50.

24. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının formalaşması və inkişafı aqrar sahənin mühüm problemi kimi // – Bakı: Azərbaycan Aqrar Elmi, – 2016. № 5, – s.72-74.

25. Hümbətov, Y.Ə. Respublikamızda aqrar infrastrukturların təkmilləşdirilməsi istiqamətləri // – Mingəçevir: Respublika Elmi – Praktik Konfrans MDU, 2016. – s.134-136.

26. Гумбатов, Ю.А. Повышения инвестиционных вложений в пчеловодство // – Омск: Вестник Омского Регионалного Института научно-практический журнал 2017. № 1 – с.118-122.

27. Hümbətov, Y.Ə. Aqrar sahənin maliyyə təminatının yaxşılaşdırılması yolları // – Gəncə: ADAU Elmi əsərləri 2017. №1, – c.179-181.

28. Гумбатов, Ю.А. Организация и управление пчеловодства в Азербайджане // Монография. Palmarium academic publishing 2017 – 239 стр.

29. Hümbətov, Y.Ə. Respublikamızda aqrar bazarın formalaşması xüsusiyyətləri // – Bakı Aqrar Elmi Jurnalı 2017. №1, – s.11-12.

30. Hümbətov, Y.Ə. Arıçılıq təsərrüfatlarının iqtisadi idarəetmə sisteminin əsasları // – Gəncə: ADAU Elmi əsərləri 2017. №2, – c.126-130.

31. Humbatov, U.A The efficiency of the ecological factors to the economical productivity the Apiculture // Australian Journal of Education and Science. 2018. №1(21), – p.505-509.

32. Alıyev, I.H, Hümbətov, Y.Ə. Müasir arıçılıq təsərrüfatlarının təşkilinin bəzi məsələləri // – Bakı: Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi əsərləri. 2018. № 1. – s.5-9.

33. Hümbətov, Y.Ə, Cavadov.N.Ə." Arıçılığın inkişafı və onun turizmə təsiri. Kənd təsərrüfatının iqtisadiyyatı” jurnalı Bakı-2020, (№2(32) – s.137-145

Dissertasiyanın müdafiəsi 23 fevral 2022-ci il tarixində saat 14:00 Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 22 yanvar 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.01.2021
Kağızın formatı: 60x84
Həcm: 88727 işarə
Tiraj 100